# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Samir Nuriyev BƏƏ-nin Hesablama Qurumunun nümayəndə heyəti ilə görüşüb



4

SƏS

№ 125 (7293)

18 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

# Şuşa və Füzulidə tarixi günlər!



2

## Zəngəzur dəhlizinə nəzarət məsələsində nə Qərb, nə də Rusiya... - Bəhruz Quliyev



4

# Gücü yox, iddiası çox...

*Ermənistanda dilemmalar dövrü yaşanır*



5

## O uşaqlıq, bu uşaqlıq...



13

## Sağlam və uzun yaşamaq üçün nə yeməli?



15

## Təhsil anlayışı: Bilik vacibdir, yoxsa diplom?



8

## İnək məsələsində niyə qadın, Məleykə xanım?



12

# Şuşa və Füzulidə tarixi günlər!



Ermənistanın təcavüzünə məruz qalmış və ərazilərinin 20 faizi 30 illik işğal altında olmuş Azərbaycan 2020-ci ilin noyabrında işğala son qoyduqdan və ərazi bütövlüyünü bərqərar etdikdən sonra işğaldan azad etdiyi ərazilərinin bərpasına başlayıb. Təcavüz nəticəsində bu ərazilərdən didərgin salınmış soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması üzrə Böyük Qayıdış Dövlət Proqramını həyata keçirir. Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal Azərbaycana 150 milyard ABŞ dolları dəyərində zərər vurub. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə - Füzuliyə və Şuşaya səfəri həyata keçirilən işlərin keyfiyyət və sürətlə reallaşmasının göstəricisidir.





Son zamanlar Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətində yüksək dinamika müşahidə edilir. Ölkəmizin Mərkəzi Asiya, eyni zamanda, regionun türkdilli dövlətləri, o cümlədən Türkmənistanla genişlənən əlaqələri yeni reallıqlara uyğun şəkildə inkişaf edir, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Türkmənistan ilə Azərbaycan arasında münasibətlər qədim tarixə söykənir. Azərbaycanlılar və türkmənlər eyni kökə, mədəniyyətə, qədim tarixi ənənələrə malikdirlər. Bundan əlavə, xalqlarımızı dil və din eyniliyi də birləşdirir. Ölkələrimizin müstəqilliyinin bərpasından sonra münasibətlərimiz daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Azərbaycan və Türkmənistan arasında formalaşan yüksəksəviyyəli siyasi dialoq qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə əsaslanır. Dövlət başçılarının bir-birinə hörməti, daim aktual siyasi məsələlərdə koordinasiyalı yanaşmaları münasibətlərin əsasını təşkil edir. Hər iki dövlət həm regional, həm də beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləyərək ortaq maraqlar naminə birgə fəaliyyət göstərirlər. Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna səfəri əlaqələrin dinamik inkişafına söykənir.



## FÜZULİ BAŞ PLANA UYĞUN QURULUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar. Qonaq şəhərin Baş planı ilə tanış olub. 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində törədilən dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verilib. Vaxtilə sıx məskunlaşmış və çiçəklənən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. Torpaqlarımız işğaldan azad edilləndən sonra qısa müddətdə Füzuli şəhərinin Baş planı hazırlanıb, Prezident İlham Əliyev tərəfindən təsdiqlənib və 2021-ci ildə ictimaiyyətə təqdim edilib. Böyük nəqliyyat-logistika potensialına malik olan Füzuli Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Füzuli şəhərinin ümumi sahəsi təxminən 1942 hektardır. Baş plana əsasən, 2040-cı ilə qədər şəhərdə 50 min nəfərin yaşaması nəzərdə tutulur. Füzulidə İşğal və Zəfər muzeylərini əhatə edəcək Füzuli Memorial Kompleksi yaradılacaq, Kurmanqazı adına Yaradıcılıq Mərkəzi inşa olunub, şəhər xəstəxanası tikilir, şəhər parkı salınacaq, genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri həyata keçiriləcək. Baş plana əsasən, uşaq bağçaları və məktəblər kimi sosial infrastruktur obyektləri müvafiq olaraq 300 və 500 metrlik məsafədə yerləşəcək. Görüləcək işlər nəticəsində müasir standartlara və memarlıq özəlliklərinə uyğun inşa olunacaq Füzuli şəhəri azad edilmiş ərazilərdə iri şəhərlərdən birinə çevriləcək. Burada "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq. Füzuli şəhərinin 12 hektardan çox olan ərazini əhatə edəcək inzibati mərkəzi isə 3 hissəyə bölünəcək.

Xatırladaq ki, dövlətimizin başçısı Füzuli şəhəri və rayon kəndləri azad olduqdan sonra bir neçə dəfə oraya səfər edib. "Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq", - deyə dövlət başçımız çıxışlarının birində bildirib. "Qarabağın hava qapısı" adlandırılan və cəmi 9 ayda inşa edilən Füzuli Beynəlxalq Hava Limanı abadlıq və quruculuq işlərinin ən gözəl nümunələrindəndir. Qeyd edək ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq.

## İYİRMİ ÜÇ BİNADAN İBARƏT YAŞAYIŞ KOMPLEKSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bu kompleksin təməlini 2021-ci ilin avqustunda Azərbaycan Prezidenti qoyub. Yaşayış kompleksində ümumilikdə 450 mənzil var. Onlardan 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Burada keçmiş məcburi köçkünlər və Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər üçün xidməti mənzillər istifadəyə verilib. Bu yaşayış kompleksinə indiyədək 376 keçmiş məcburi köçkün ailəsi, ümumilikdə isə 1409 nəfər köçürülüb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib.

## ZƏFƏR GÜNÜNÜ SİMVOLİZƏ EDƏCƏK YENİ ŞUŞA MƏSCİDİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

*Ardı Səh. 3*

# Şuşa və Füzulidə tarixi günlər!



Əvvəli Səh. 2

Təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və memarlıq həlli rəmzi xarakter daşıyan məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi seçiləcək. Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən məscidin forması 8 rəqəmini əks etdirəcək. Bu da öz növbəsində Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Məscidin iki minarəsi isə 11 rəqəmi formasında olacaq. Bu isə Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzidir. Minarələrinin hündürlüyü 72 metr olacaq məscid Şuşanın yuxarı hissəsində inşa edilir. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Hazırda işlərin 60 faizindən çoxu həyata keçirilib. Məscidin inşasının gələn il yekunlaşdırılması nəzərdə tutulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar. Ölkə əhəmiyyətli memarlıq abidələri siyahısında olan bu binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Yaradıcılıq Mərkəzi 2023-cü il mayın 10-da istifadəyə verilib.







Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağın sosial, iqtisadi, siyasi və mədəni inkişafında xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda, Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb.

Qeyd edək ki, 1969-cu ildən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Dahi şəxsiyyət mürəkkəb tarixi şəraitdə belə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolunun istismara verilməsi Qarabağın digər rayonlarımızla təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi baxımından Ulu Öndərin strateji addımı olmaqla yanaşı, həm də böyük tarixi xidməti idi.





## ŞUŞANIN ŞÖHRƏTİ ÖZÜNƏ QAYTARILIR

Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, islam dünyasının eləcə də bütün dünyanın mədəniyyət payxatı elan olunmağa layiqdir. Milli-mənəvi dəyərlərinin beşiyi kimi tanınan Şuşa əsrlərin sınağından çıxaraq yüzilliklərin daş yaddaşında tarix yazıb. Bu tarix Şuşa haqqında olan bütün məlumatları özündə əks etdirib. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" elan olunması islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsi idi və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynamış oldu.

Şuşada dini abidələrə dövlətimiz tərəfindən diqqətlə yanaşılır. Ermənilər tərəfindən dağıdılmış dini abidələrimizə yeni həyat verilir. Şuşada Mamayı məscidinin bərpadan sonra açılışı bunun göstəricilərindən biridir. Heydər Əliyev Fondunun "PAŞA Holdinq"in dəstəyi ilə məsciddə və məscid ərazisindəki bulaqda apardığı bərpa işlərinə 2023-cü ildə başlanılmışdı. Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılmışdır. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. İşğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Bundan əlavə Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxıblar. İşğal zamanı ermənilərin bu heykəlləri Ermənistana apararaq əritmək istədikləri barədə Qurbanqulu Berdiməhəmmədova məlumat verilib. Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra isə həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Şuşa səfəri çərçivəsində Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Bülbülün ev-muzeyində də olublar. Bildiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün doğulduğu və yaşadığı ev onun ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşanın azad olunmasından sonra digər tarixi-mədəni abidələrimiz kimi Bülbülün ev muzeyinin də bərpasına başlanılıb və 2021-ci ilin avqustunda bərpa işlərinin bitməsindən sonra muzeyin açılışı olub.

Ev-muzeyinin həyətində Bülbülün yeni büstü ucaldılıb. Şuşa şəhəri işğal altında olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü də erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

Böyük Qayıdış çərçivəsində Qarabağda və Şərqi Zəngəzurda çox böyük infrastruktur layihələr icra olunur, şəhərlər və kəndlər yenidən salınır, yollar çəkilir, dayanıqlı məskunlaşma üçün nəhəng işlər həyata keçirilir. Keçmiş məcburi köçkünlər, erməni işğalı nəticəsində əziyyət və yurd həsrəti çəkmiş insanlar öz dədə-baba yurdlarına qayıdırlar. Azərbaycan dünyada yeganə ölkədir ki, ağır müharibədən dərhal sonra işğaldan azad edilən torpaqlarda bərpa və yenidənqurma işlərinə başlayıb. Bütün bunlar keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma yurd-yuvalarına qayıtmalarına imkan verir.

***Zümrüd BAYRAMOVA***

# Samir Nuriyev BƏƏ-nin Hesablama Qurumunun nümayəndə heyəti ilə görüşüb

İyulun 17-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Hesablama Qurumunun sədri Humeyd Obeyd Abuşibsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətlərin cari vəziyyətindən məmnunluq ifadə olunub. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə son səfərinin və hər iki ölkənin dövlət başçılarının iştirakı ilə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaratdığı xüsusilə vurğulanıb.



Son illər Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadiyyat, nəqliyyat, enerji, mədəniyyət sahələrində və digər sahələrdə münasibətlərin davamlı və dinamik inkişaf etdiyi vurğulanıb. BƏƏ şirkətlərinin Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrində istifadə sahəsində bir sıra uğurlu layihələr icra etdiyi bildirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin sürətlə davam etdiyi diqqətə çatdırılıb. Görülmüş işlərin nəticəsi olaraq artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqları bildirilib. Eyni zamanda, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə göstərdiyi maliyyə dəstəyinə görə BƏƏ-yə təşəkkür ifadə edilib.

Həmçinin Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Birləşmiş Ərəb Əmirliklərinin Hesablama Qurumunun fəaliyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, institusional islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması istiqamətində görülən tədbirlər və həmin sahələr üzrə ikitərəfli və beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub. Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Türkmənistan mətbuatı Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərini geniş işıqlandırıb







***Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri və səfər çərçivəsində işğaldan azad edilən Qarabağda aparılan quruculuq işləri ilə tanış olması bu ölkənin mətbuatında geniş işıqlandırılıb.***

AZƏRTAC xəbər verir ki, Türkmənistanın "Atavatan", "Orient", "Turkmenportal", ingilisdilli "News Central Asia", "Takyk", "Business", "Arzunews", "Ashgabattimes" və digər informasiya resursları səfər barəsində geniş materiallar dərc edib.




Materiallarda rəsmi xəbərlərlə yanaşı, şərhlər də öz əksini tapıb. Diqqətə çatdırılıb ki, Türkmənistan və Azərbaycan xalqları ortaq tarixə, dinə, mədəniyyətə, milli-mənəvi dəyərlərə malikdirlər və bu amillər iki xalqın birliyini, dövlətlərin isə uzunmüddətli əməkdaşlığını şərtləndirir. Vurğulanıb ki, hər iki dövlətin rəhbərləri arasında hökm sürən mehriban münasibətlər əlaqələrin inkişafına töhfə verir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov görkəmli siyasi və dövlət xadimləridir, hər iki lider xalqlarının rifahı naminə geniş əməkdaşlıq əlaqələri quraraq ölkələrini inkişaf etdirir.




Qeyd olunub ki, Türkmənistan ilə Azərbaycan nəqliyyat, tranzit, ticarət, energetika sahələrində əməkdaşlıq əlaqələrini davam etdirir və gələcəkdə münasibətlərini daha da möhkəmləndirəcək.

## Zəngəzur dəhlizinə nəzarət məsələsində nə Qərb, nə də Rusiya... - Bəhruz Quliyev

"44 günlük Vətən müharibəsində qələbədən sonra regionda fərqli mənzərə yaranıb. Məhz Zəngəzur dəhlizi ətrafında gedən geopolitik proseslər də təkcə bir nəqliyyat layihəsinin həyata keçirilməsi deyil, həm də bölgədə yeni geosiyasi düzənin formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Bugünkü mənzərəyə diqqət yetirdikdə görürük ki, həm ABŞ, həm də Rusiya bu dəhlizə öz maraqları prizmasından yanaşır və ona nəzarət uğrunda ciddi rəqabət aparırlar". SİA xəbər verir ki, bunu hafta.az-a açıqlamasında "Səs" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.



Qeyd edib ki, bir tərəfdən Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı əsas götürərək öz hərbi və təhlükəsizlik strukturlarını bu marşruta yerləşdirmək niyyətini açıq şəkildə ortaya qoyur, digər tərəfdən isə ABŞ bölgədə iqtisadi açılım, ticarət yollarının təhlükəsizliyi və İranın bloklanması kontekstində Zəngəzuru strateji əlaqə nöqtəsi kimi dəyərləndirir: "Bu fon isə təkcə regional deyil, qlobal maraqların toqquşduğu yeni müstəvini yaradır. Çin, Türkiyə, İran, Hindistan kimi oyunçular da bu prosesə ya birbaşa, ya da dolayı yollarla qoşulur. Belə şəraitdə sual yaranır - Azərbaycan bu cərəyanlar arasında öz milli maraqlarını necə qoruyacaq. Azərbaycan dövləti bu gün öz siyasi iradəsi, hərbi gücü və diplomatik çəkisi ilə artıq bölgədə hadisələrin obyektindən çox, subyektinə çevrildiyini sübut edir. Dəhlizə nəzarət məsələsində Azərbaycan heç bir kənar qüvvədən asılı olmaq niyyətində deyil. Əksinə, Türkiyə və Pakistan kimi qardaş və strateji tərəfdaşlarla birlikdə bu məsuliyyəti yerinə yetirmək iqtidarındadır".

B.Quliyev deyib ki, müasir beynəlxalq münasibətlərdə balanslaşdırılmış və çoxvektorlu siyasət aparan ölkələr daha uğurlu olur: "Prezident İlham Əliyevin milli maraqlara söykənən siyasəti də məhz bu modelə uyğun qurulub. Bu səbəbdən də Zəngəzur dəhlizinə nəzarət məsələsində ölkəmiz nə Qərbin, nə də Rusiyanın diqtəsinə uyğunlaşmayacaq, əksinə, öz şərtlərini irəli sürəcək.

Qeyd edim ki, artıq qlobal düzən dəyişir. Yeni güc mərkəzləri - Asiya, Türk Dövlətləri Təşkilatı, İslam dünyası güclənir. Azərbaycan bu mərkəzlərlə paralel hərəkət etməklə həm iqtisadi, həm də strateji sabitliyini təmin edir. Bu reallıqlar fonunda, hesab edirəm ki, Zəngəzur dəhlizi Azərbaycanın suveren layihəsi kimi reallaşmalı və nəzarəti də birbaşa Bakı tərəfindən həyata keçirilməlidir. Bu təkcə coğrafi bağlantı deyil, bu, tarixi ədalətin bərpası və gələcəyə açılan qapıdır".

# Gücü yox, iddiası çox...

*Ermənistanda dilemmalar dövrü yaşanır*



Abu-Dabi görüşündən sonra Paşinyanın başı dərddən ayrılmır. Kilsə revanşistlərlə birləşib baş nazir postunu ələ keçirmək, bununla da Azərbaycanla əldə edilmiş anlaşmanı sıfırlamaq niyyətini gizlətmir. Hətta Rusiyanın onlara bu məsələdə böyük dəstək verildiyini də açıq şəkildə bəyan edirlər. Moskvanın İrəvana göndərdiyi növbəti adamının bu dəfə Paşinyan tərəfindən qandallanması Rusiyada və onun İrəvandakı əlaltılarında soyuq duş effekti yaradıb. Əslində, Paşinyanın bu qədər uzağa gedəcəyini heç kim gözləmirdi, nə qədər olsa da Samvel Karapetyan Rusiya vətəndaşıdır, bu ölkəyə milyonlarla vergi ödəyir, Putinə yaxındır və ən sonda Vladimir Vladimiroviçin Ermənistanla bağlı planında son ümid yeridir.

Son günlər ermənilərin gündəminə bir mövzu da düşüb ki, bunu hökuməti vurmaq üçün daha tez-tez hallandırılar. Zəngəzur dəhlizinin 100 illiyə ABŞ şirkətlərindən birinə icarəyə verilməsi ölkənin siyasi dairələrini 2, 3, hətta 4 yerə parçalayıb. Bunu ölkənin suverenliyinə qəsd kimi düşünənlərlə yanaşı, yeganə çıxış yolu kimi təqdim edənlər də az deyil. Kənar qüvvələr isə yenə öz çıxarları barədə düşündüklərini gizlətmirlər. Rusiya 10 noyabr 2020-ci il üçtərəfli Bəyanata istinad edərək Zəngəzur yoluna nəzarət haqqının onda olmasında israr edir. İran bombardmandan sonra yenə iddialı görünməyə çalışsa da, daha "xəttin" hansı rəngdə olmasına işarə vurmur. Azərbaycanla Türkiyə rəsmi açıqlama verməyiblər. Görünür, Zəngəzurda "marağı" olan qüvvələrə "son söz haqqı"nın Bakı və Ankarada olduğunu anlatmağa çalışırlar.





## Bəs Ermənistanda nə baş verir?

Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, onun rəqibləri təhqiredici ritorikada onunla rəqabət aparmaq cəhdlərində uğursuzluğa məhkumdurlar, çünki o, siyasi karyerasının başlanğıcında həbsxanada vaxt keçirməyi bacarıb və folklorla da çox maraqlanır. "Təhqir nədir? Bu, arqumentlərin olmamasıdır. Son təhqirlər baş nazirə ünvanlananda, təhqir edənlərin fikrincə, o, ölkənin lideri deyil, özünü onlardan müdafiə edəndə isə artıq liderdir. Qoy heç kim mənimlə bu lüğətdə rəqabət aparmasın", Paşinyan İrəvanda keçirilən mətbuat konfransında deyib.

Ermənistanın baş naziri xatırladıb ki, o, uzun müddət beş cəzaçəkmə müəssisəsində olub, filologiya və folklorla maraqlanır. Onun fikrincə, özünü söz ustası hesab edənlər əlverişsiz vəziyyətə düşə bilərlər. Nikol Paşinyan 2008-ci ildə Ermənistanda keçirilən prezident seçkilərindən sonra etiraz aksiyalarının təşkilatçılarından biri olub. Toqquşmalarda 10 nəfər ölüb, 200-ə yaxın insan yaralanıb. Cənab Paşinyan 2009-cu ilin yayında gizlənib və hakimiyyətə təslim olub. 2010-cu ilin yanvarında o, 7 il müddətinə azadlıqdan məhrum edilib. 2011-ci ilin mayında amnistiyaya əsasən azadlığa çıxıb.

## Karapetyanın siyasi partiya yaratmaq planları

Ermənistanın baş naziri Nikol Paşinyan rusiyalı və erməni biznesmen Samvel Karapetyanın siyasi fəaliyyətlə məşğul olmaq planları ilə bağlı bəyanatını tənqid edib. Ermənistan hökumətinin başçısı vurğulayıb ki, iş adamı Rusiyada yaşayır, bu o deməkdir ki, o, deputat və ya baş nazirliyə namizəd ola bilməz. "İlkin vətəndaşı olduğu ölkədə hər kəsin ağlına gələ bilərmi ki, Samvel Karapetyan Ermənistanda özünü aparmağa çalışdığı kimi davrana bilər? Əgər əsas vətəndaşı olduğu ölkədə birdən Karapetyanın ağlına belə bir fikir gəlsə, o, ilk fürsətdə yuxarı mərtəbənin pəncərəsindən atılacaq. Ermənistan ictimai yer deyil. Ermənistanda da elə davranın, Ermənistanda elə davranın ki, ilkin vətəndaşlığınız olduğu ölkədə necə davranırsınız. O, əsas iqamətgahı olduğu ölkənin vətəndaşlığından imtina etsin, sonra da gəlib burada istədiyi qədər siyasi fəaliyyətlə məşğul olsun", - deyə baş nazir yekunlaşdırıb.

Ermənistan və Rusiya vətəndaşlığı olan Samvel Karapetyan "Taşir" Şirkətlər Qrupunun (baş ofisi Moskvada yerləşir) prezidentidir. O, iyunun 18-dən İrəvanda Erməni Apostol Kilsəsini müdafiə etdiyi çıxışa görə hakimiyyəti ələ keçirməyə çağırış ittihamı ilə həbsdədir. İyulun 4-də onun tərəfdarları Ermənistan paytaxtının mərkəzində yürüş keçirib. Bunun ardınca iş adamı Ermənistanda yeni partiya yaratdığını açıqlayıb.

## Rusiya erməniləri Paşinyanı istefaya çağırıb

Ermənistanın baş naziri Nikol Paşinyan istefa verməli və ya bir daha respublika başçısı seçkilərində iştirak etməməlidir. Çünki o, ölkə xalqına verdiyi vədləri yerinə yetirmədi. Bu barədə Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyan məlumat verib. Onun sözlərinə görə, Paşinyan Ermənistanda baş nazir postunu tuta bilməz. Əgər o, bir az da olsa erməni xalqı haqqında fikirləşirsə, istefa verməlidir - bu onun üçün düzgün qərardır, deyə Ara Abramyan əlavə edib. Abramyan vurğulayıb ki, Paşinyan seçicilərə verdiyi vədləri yerinə yetirməyib. "Bacardığım qədər etdim. Yaxşı, ya pis, amma "stop" düyməsini basın, belədir, camaata deyin: Siz məndən soruşursunuz, sizə söz verdiyimi edə bilmədim, tam əksi oldu, amma buna əsaslanaraq, getmək istəyirəm", qeyd edib.

Ardı Səh. 6



Vügar Vəliyev

# Milli dəyərlər efir oyuncağı deyil!

Azərbaycan xalqı tarixin bütün dövrlərində ailə institutuna, mənəvi dəyərlərə və əxlaqi prinsiplərə önəm verib. Bizim ailə modelimiz nəinki Cənubi Qafqazda, ümumilikdə Şərq dünyasında örnək göstərilib, böyüyə hörmət, kiçiyə qayğı, ailə içi münasibətlərdə məsuliyyət və sevgi əsas sütunlar sayılıb. Lakin təəssüf ki, bu gün bəzi televiziya kanalları reytinq xətrinə həmin sütunların altına od qoymağa başlayıb.

Son illər efirdə yayımlanan bəzi verilişlərdə ailə dəyərləri açıq şəkildə istismar olunur. Gündəlik yayımlanan proqramlarda insanların ailəiçi dramları, şəxsi faciələri, boşanmaları, xəyanətləri, hətta bəzən kriminal xarakterli hadisələri şouya çevrilir. Tamaşaçı qarşısında "ailə dəyərləri" adı ilə təqdim olunan bu verilişlər əslində ailənin məhvinə aparan yolu legitimləşdirir, yəni normal kimi qəbul etdirir.

Ən qorxulusu isə budur ki, bu verilişləri uşaqlar, gənclər, ailə quran və ya ailə qurmağa hazırlaşan insanlar da izləyir. Onlar üçün bu verilişlər tədricən "gerçək həyat nümunəsi"nə çevrilir. Əgər bir millət ailə dəyərlərinə laqeyd qalarsa, onun sabahı olmaz. Əgər cəmiyyət efirdəki mənzərəni norma kimi qəbul edərsə, o zaman sabah qurulan ailələr də bu dəyərlərsizliyin üzərində qurulacaq.

Sual yaranır: Bəs niyə bu cür verilişlər efirə çıxmaqda bu qədər asan yol tapır? Niyə cəmiyyətə, ailəyə fayda verəcək maarifləndirici proqramlara, milli ənənələrimizi, dəyərlərimizi təbliğ edən layihələrə bu qədər yer verilmir? Niyə xalqımızın şanlı ailə tarixi, anaların tərbiyəsi, ataların məsuliyyəti, nənələrin hikməti, babaların örnəyi efirdə görünmür?

Televiziya sadəcə əyləncə vasitəsi deyil, həm də tərbiyə və təbliğat vasitəsidir. Efirdə nə göstərilirsə, cəmiyyət onu təkrarlayır. Ona görə də efir məkanına buraxılan hər söz, hər mövzu, hər görüntü məsuliyyət tələb edir. Əgər bu məsuliyyət yoxdursa, efir məkanı cəmiyyət üçün təhlükəyə çevrilə bilər.

Təəssüflə demək lazımdır ki, bu gün bəziləri xalqın sədaqətini, əxlaqını, ailə dəyərlərini əyləncə predmeti kimi təqdim edir. Elə bil xalqımızın faciəsi onların şousudur. Halbuki biz bu cür hallara yox, əxlaqlı, milli kimliyimizi təbliğ edən verilişlərə ehtiyac duyuruq.

Azərbaycan ailəsi güclü ailədir. Bizim ailə modelimiz müharibədə övlad böyüdən anaya, torpaq uğrunda can verən ataya söykənir. Bizim ailə dəyərlərimiz Vətən üçün şəhid yetişdirən ailənin əxlaqında gizlidir. Gəlin bu dəyərləri ucuz reytinqə qurban verməyək.

Unutmayaq: bizi dost da, düşmən də izləyir. Efirdə təqdim olunan hər obraz, hər ailə modeli xaricdə ölkəmiz haqqında fikir formalaşdırır. Biz bu xalqın adına, dəyərlərinə, mədəniyyətinə sadiq qalaq. Rəzilliyi yox, nümunəni efirə çıxaraq. Çünki efirdə olan - sabahımızın aynasıdır.

# Gücü yox, iddiası çox...

*Ermənistanda dilemmalar dövrü yaşanır*





Əvvəli Səh. 5

Paşinyan özü erməni kilsəsini subaylıq andına əməl etməyən keşişlərdən təmizləmək məqsədi daşıyan hərəkata rəhbərlik etmək planlarını açıqlayıb. Bundan əlavə, Ermənistanın baş naziri nədənsə həbsxana keçmişi ilə öyünmək qərarına gəlib. İrəvanda keçirilən mətbuat konfransında söhbət Paşinyanla təhqiramiz ritorika yarışına gedəndə o, lovğalanmağa başlayıb ki, beş kriminal müəssisədə olub, deyirlər, orada hər şeyi öyrənib.

## Aİ-yə Ermənistanın simasında forpost lazımdır

Enerji təhlükəsizliyi üzrə ekspert Vahe Davtyan bildirib ki, Ermənistanın "Avropa Qlobal Gateway" təşəbbüsündə iştirakı təkcə potensial fayda deyil, həm də ciddi risklər daşıyır. "İlk baxışda bu təşəbbüs perspektivli görünsə də, əslində Ermənistanın milli təhlükəsizliyinə bir çox təhdidləri ehtiva edir", o qeyd edib. Davtyanın sözlərinə görə, Avropa Komissiyasının 2021-ci ildə təsdiq etdiyi 300 milyard avroluq proqram iki əsas geosiyasi məqsəd qoyur:

1. Qlobal səviyyədə - Çin Kəmər və Yol təşəbbüsünə qarşı mübarizə;

2. Mezo səviyyədə - Rusiya və İrandan yan keçərək Avropa-Qafqaz-Asiya marşrutunu formalaşdırmaq.

"Orta dəhliz"ə xüsusi diqqət yetirilir və ekspertin fikrincə, "Zəngəzur dəhlizi"nin irəliləməsi autsorsing prinsipi əsasında sürətlənir ki, bu da Türkiyə və Azərbaycanın logistik maraqlarına töhfə verə bilər, eyni zamanda Ankara-İrəvan-Bakı anti-Rusiya oxunu formalaşdıra bilər. "Bunun fonunda Aİ-nin Cənubi Qafqaz forpostuna ehtiyacı var və onlar indi onu Ermənistanın simasında yaratmağa çalışırlar", - Davtyan iddia edir. O, həmçinin Ermənistanı belə bir "forpost"a çevirmək üçün Rusiya kapitalının əsas infrastrukturlardan, o cümlədən dəmir yollarından, qaz nəqli şəbəkələrindən və ola bilsin, nüvə enerjisindən tədricən sıxışdırılacağını proqnozlaşdırır.

## Ermənistan bunun müqabilində nə alacaq?

Ekspertin fikrincə, bunun müqabilində Ermənistan böyük ehtimalla borc yükünün kəskin artması ilə üzləşəcək - söhbət 2,5 milyard avroya qədər olan kreditlərdən gedir. Davtyan qeyd edir ki, "Aİ-nin kredit proqramları necə işləyir və onların hansı hissəsinin faktiki olaraq benefisiar ölkənin inkişafına yönəldiyi Avropa institutlarının mexanizmləri ilə bir az da olsa tanış olan hər kəsə yaxşı məlumdur".

Bununla paralel olaraq, onun sözlərinə görə, Ermənistan media savadlılığının artırılması, vətəndaş cəmiyyətinin inkişafı, azlıqların hüquqlarının müdafiəsi və digər "virtual" məqsədlərə yönəlmiş bir neçə milyon avro məbləğində məhdud qrantlar alacaq.

## Ermənistan-Rusiya münasibətləri əvvəlki kimi olmayacaq

Ermənistanla Rusiya arasında münasibətlər transformasiya mərhələsindədir. Bu-nu iyulun 16-da keçirdiyi mətbuat konfransında Ermənistanın baş naziri Nikol Paşinyan deyib. "Rusiya ilə münasibətlərimiz bundan sonra əvvəlki kimi olmayacaq. Amma bu, o demək deyil ki, bizim münasibətlərimiz pis olmalıdır. Məncə, onlar yaxşı olmalıdır, əvvəlkindən qat-qat yaxşı. Təbii ki, Rusiyanın bu və ya digərini planlaşdırdığına dair müəyyən siqnallar var. Açığını deyim ki, mən bu cür söz-söhbətlərə və qiymətləndirmələrə inanmağa meylli deyiləm, lakin hər hansı problem yaranarsa, rusiyalı tərəfdaşlarımızla bu barədə danışacağıq, müzakirə edəcəyik və həll yollarını tapmağa çalışacağıq", - Paşinyan əlavə edib.

## Rusiyadan cavab: "İrəvan çoxvektorlu siyasət apardığına inanır"

İrəvan hesab edir ki, çoxvektorlu siyasət yürüdür, o cümlədən ŞƏT-ə üzv olmaqda maraqlıdır. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Ermənistanın baş naziri Nikol Paşinyan bundan əvvəl bəyan etmişdi ki, o, Ermənistanın KTMT-dən çıxmasını onun təşkilatda iştirakının dondurulmayacağından daha çox ehtimal edir. Peskov "Mayak" radiostansiyasına verdiyi şərhdə qeyd edib ki, bu, Ermənistanın suveren məsələsidir. "Lakin eyni zamanda, onlar ŞƏT-də maraqlıdırlar. Yəni, onlara göründüyü kimi, çoxvektorlu siyasət yürüdürlər", - Peskov bildirib.

## Rusiya dilemma ilə üzləşsə

Əgər Rusiya Ukrayna və ya Qafqazda qalmaq arasında seçim qarşısında qalacaqsa, diqqətini Ukraynaya yönəldəcək. Bu barədə ABŞ-ın Lehi Universitetinin professoru Arman Qriqoryan müsahibəsində danışıb. "Qafqaz nə qədər önəmli olsa da, Ukrayna bundan da önəmlidir. Biz isə bilmirik ki, Rusiyanın vəziyyəti nə qədər ağırdır, yəni onlar belə sərt seçim etmək həddinə çatıblarmı? Ancaq çətin seçim etmək vəzifəsi yaranarsa, onlar öz qüvvələrini, resurslarını cəmləyib Ukrayna üçün saxlamağa məcbur olacaqlar. Və mənə elə gəlir ki, bu halda onlar Qafqazı verəcəklər", - ekspert qeyd edib.

Professor Qriqoryan vurğulayıb ki, əgər onun fikrincə, erməni tərəfi Rusiyanın opponentlərinə davranışı ilə kömək etməsəydi, "əgər biz faktiki olaraq Rusiyanı Qafqazdan sıxışdırmaq məqsədi daşıyan arabaya əl atmasaydıq" Rusiyanın vəziyyətinin Qafqazdakı mövqelərini qorumaq baxımından nə qədər çətin olacağından əmin deyiləm.

O, baş verənlərə görə Ermənistanın günahkar olmadığı və Rusiyanın özünün də Artsaxdan yapışa bilmədiyi barədə bəyanatlara da münasibət bildirib. Professor Qriqoryanın fikrincə, Rusiyanın arxasında Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyan məhz Ermənistan idi və Rusiya tərəfi Qarabağ məsələsi və Ermənistan-Azərbaycan danışıqları baxımından bir çox fərqli üstünlüklərə malik idi. "Onlar Qarabağın statusunu qeyri-müəyyən vəziyyətdə qoymaq və ilk növbədə Rusiyanın vasitəçiliyi və zəmanəti ilə həyata keçiriləcək Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanmasına şərait yaratmaq istəyirdilər. Bu isə Rusiyaya sülhməramlı qüvvələrini orada buraxmağa imkan verəcək və s.", - politoloq qeyd edib.

## Paşinyan "Daşnaksütyun"-un fəaliyyətinə qadağa qoyur

Daşnaksütyunla bağlı məsələnin iki tərəfi var - hüquqi və siyasi. Bunu iyulun 16-da mətbuat konfransında Ermənistanın baş naziri Nikol Paşinyan "Mülki müqavilə" partiyasının bəzi üzvlərinin millətçi partiyanın qadağan edilməsinin zəruriliyi ilə bağlı səsləndirdiyi fikrə münasibət bildirərkən deyib. Paşinyan qeyd edib ki, partiyanın bağlanması hüquqi prosesdir və hüquqi qərarlar çərçivəsindədir.

Mülki Müqavilə Partiyasının dəyişmə prosesində olduğu və orada yalnız fəal fiqurların qalacağı ilə bağlı söhbətlərə münasibət bildirən Baş nazir deyib: "Bizim partiyamız fəal məkandır və həmişə belə olub. Partiyada qalmaq istəyən və xaric üçün heç bir əsası olmayan insanlar orada qalır. Partiya insanların siyasi fəaliyyət göstərdiyi platformadır. Həm də sağlam partiyadaxili rəqabət var, bu həmişə mövcud olub və biz bunu partiyanın sağlamlığının təminatı hesab edirik. İstisna etmirəm ki, bəzən qeyri-sağlam atmosferin təzahürləri olur, amma belə hallar həyatda hər kəsin başına gəlir".

## Erməni Kilsəsi Paşinyanı lənətləyir

Baş nazir yüksək dövlət tribunasından istifadə edərək Erməni Apostol Müqəddəs Kilsəsinin nüfuzuna və daxili əmin-amanlığına xələl gətirməkdə davam edir. Bu barədə Erməni Kilsəsini Müdafiə Ümumerməni Şurasının yaydığı bəyanatda deyilir. "Baş nazirin bu gün verdiyi bəyanatlar Ermənistan Konstitusiyasının həm dini qurumların azad fəaliyyətinə, həm də ÜAK-ın erməni xalqının həyatında müstəsna roluna zəmanət verən fundamental müddəalarına açıq şəkildə ziddir. Paşinyanın oxları minillik yarımdan artıqdır ki, bütün dünyada ermənilə-ri dəstəkləyən və birləşdirən quruma yönəlib.

Bu cür bəyanatlar din xadimlərini süni şəkildə "doğru" və "yanlış" qruplara bölür, inamsızlıq səpərək təhlükəli presedent yaradır, o zaman ki, siyasi hakimiyyət inancın sərhədlərini müəyyən etmək hüququnu özündə saxlayır. Bu, nəinki kilsənin suveren təbiətini təhrif edir, həm də dövlət rıçaqlarının köməyi ilə "invaziv" səsləri susdurmaq mümkün olan "cadugər ovu"na çevrilmək təhlükəsi yaradır.

Erməni Kilsəsini Müdafiə üzrə Ümumerməni Şurası baş nazirin beynəlxalq hüquq normalarına da zidd olan davamlı bəyanatlarını pisləyir. Biz ölkənin siyasi rəhbərliyini ermənilərin mənəvi mərkəzini parçalayan bəyanatları dayandırmağa, dövlətlə kilsənin ayrı olduğu konstitusionalizm müstəvisinə qayıtmağa çağırırıq".

**V.VƏLİYEV**

# “Ermənistanın mövqeyi qeyri-sabit və tez-tez dəyişkən xarakter daşıyır”



**“Zəngəzur dəhlizi ilə bağlı məsələlər son dövrlərdə həm regional, həm də beynəlxalq səviyyədə geniş müzakirə predmetinə çevrilmişdir. Bu dəhlizin gələcəyi təkcə Cənubi Qafqaz ölkələri üçün deyil, eyni zamanda qlobal güc mərkəzləri üçün də ciddi strateji əhəmiyyət daşıyır. Artıq bir neçə böyük dövlət, xüsusilə də Birləşmiş Ştatlar bu məsələ ilə bağlı müxtəlif alternativ təkliflərlə çıxış edir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.**



Elman Nəsirov sözlərinə belə davam edib: ”Birləşmiş Ştatların ilk təklifi ondan ibarətdir ki, Zəngəzur dəhlizi 100 il müddətinə icarıyə götürülsün və bu zaman logistika, nəqliyyat və təhlükəsizlik sahələrində məsuliyyət daşıyan konkret operator qurumlar təyin edilsin. Alternativ təklif isə dəhlizin idarə olunmasının birbaşa ABŞ-ın xüsusi bir şirkətinə verilməsini nəzərdə tutur. Bu yanaşma, ABŞ-ın bu layihədə iştirakını dövlətlərarası səviyyədən daha çox korporativ səviyyəyə keçirmə cəhdi kimi də qiymətləndirilə bilər.

Eyni zamanda məlum olur ki, bu cür analoji təkliflərlə digər aktorlar, o cümlədən Çin də çıxış etməyə başlayır. Çin Xalq Respublikasının da bu məsələ ilə bağlı maraq nümayiş etdirməsi, Zəngəzur dəhlizinin artıq təkcə regional deyil, qlobal iqtisadi və geosiyasi əhəmiyyətə malik bir layihəyə çevrildiyini göstərir.

Digər tərəfdən, Ermənistanın bu məsələdəki mövqeyi qeyri-sabit və tez-tez dəyişkən xarakter daşıyır. Bəzən İrəvan tərəfi bildirir ki, əgər bu layihə Ermənistanın milli maraqlarına uyğun gələcəksə və mövcud qanunvericilik çərçivəsində mümkün olacaqsa, onun reallaşmasına etiraz edilməyəcək. Lakin paralel olaraq Ermənistan tərəfindən bəzi hüquqi və texniki əngəllər də irəli sürülür. Misal üçün, dəhlizin kənd təsərrüfatı təyinatlı ərazilərdən keçdiyi və bu səbəbdən istifadəsinin mümkün olmadığına dair bəhanələr irəli sürülür.

Bununla belə, son dövrlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın, Birləşmiş Ştatlardan gələn - konkret olaraq xüsusi şirkət vasitəsilə idarəetməyə dair - təklifə dolayı yolla müsbət münasibət bildirdiyi müşahidə olunur. Bu, onunla rəsmi şəkildə razılaşmasa da, təklifi inkar etməməsi və ya alternativ fikir irəli sürməməsi ilə özünü büruzə verir.

Azərbaycanın bu məsələdə mövqeyi isə birmənalı və prinsipial xarakter daşıyır:

* Zəngəzur Dəhlizində gömrük və sərhəd yoxlamalarının tətbiqi yolverilməzdir;

* Dəhliz boyunca sərbəst və fasiləsiz tranzit təmin edilməli;

* Azərbaycanın suveren hüquqları və strateji maraqları pozulmamalıdır.

Bu prinsipial yanaşma Azərbaycanın milli maraqlarından və geosiyasi strategiyasından irəli gəlir. Azərbaycan dövləti heç bir halda, nə daxili, nə də xarici təzyiqlər qarşısında bu maraqlardan geri çəkilməyi düşünmür.

Hazırda Zəngəzur dəhlizi ilə bağlı müzakirələr keyfiyyətcə yeni mərhələyə daxil olub. Böyük güclərin bu prosesə açıq şəkildə qoşulması və bir-birindən fərqli təkliflər irəli sürməsi göstərir ki, məsələnin strateji çəkisi günbəgün artır. Bu dəhliz sadəcə bir nəqliyyat yolu deyil, həm də regionda qüvvələr nisbətini dəyişə biləcək geosiyasi arteriya olaraq dəyərləndirilir. Gələcək inkişafların necə istiqamətlənəcəyi isə həm regional aktorların, həm də beynəlxalq güclərin siyasi iradəsindən və kompromis imkanlarından asılı olacaq”.

***Ayşən Vəli***



# “Azərbaycanın enerji siyasətində yeni bir mərhələnin başlanğıcı ola bilər”



“Suriya Prezidenti və nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Bu səfər çərçivəsində müzakirə olunan əsas məsələlərdən biri Azərbaycan qazının Suriyaya və oradan keçməklə İordaniya və Misirə çatdırılması perspektividir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Onun sözlərinə görə, bu təşəbbüs həm enerji, həm də geosiyasi baxımdan strateji əhəmiyyət kəsb edir və Azərbaycanın enerji siyasətində yeni bir mərhələnin başlanğıcı ola bilər: ”İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycanın qaz ixracında Yaxın Şərq istiqamətində yeni bir marşrutun formalaşması ölkənin enerji bazarını şaxələndirməsi baxımından mühüm addımdır. Hazırda Azərbaycan əsasən Avropa və Türkiyə bazarına qaz ixrac edir. Lakin Suriyaya və oradan da İordaniya və Misirə qazın çatdırılması həm yeni bazar imkanları yaradır, həm də ölkəmizin enerji siyasətini daha çevik və dayanıqlı edir. Bu, Azərbaycanın yalnız Avropa ilə məhdudlaşmayan enerji strategiyasına keçdiyini göstərir. Digər tərəfdən, bu marşrut Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirə bilər. Enerji siyasəti bu gün beynəlxalq münasibətlərdə ən mühüm alətlərdən biridir və Azərbaycanın Yaxın Şərqdə enerji təchizatçısı kimi mövcudluğu bu regionda nüfuzunun artmasına səbəb ola bilər. Bu isə həm regional əməkdaşlıq imkanlarını genişləndirir, həm də ölkəmizin strateji tərəfdaş kimi cazibədarlığını artırır.

Bununla belə, bu layihənin həyata keçirilməsi müəyyən risklər də ehtiva edir. Suriya hələ də tam sabitlik əldə etməyən bir ölkədir və marşrutun təhlükəsizliyi uzunmüddətli planlaşdırmada ciddi amillərdən biri olacaq. Eyni zamanda, bu bölgədə maraqları olan digər regional və qlobal güclərin mövqeyi də nəzərə alınmalıdır. Azərbaycanın bu prosesdə balanslı və çoxvektorlu siyasət yürütməsi vacibdir.

Nəticə etibarilə, Suriyaya və oradan İordaniya və Misirə qədər uzanan qaz ixracı marşrutu Azərbaycanın enerji siyasətində yalnız iqtisadi deyil, həm də geosiyasi dəyəri olan yeni bir səhifə açır. Bu təşəbbüs ölkəmizin regionda daha aktiv və təsirli rol oynamasına şərait yarada, eyni zamanda Azərbaycanın enerji ixracında strateji təhlükəsizliyini gücləndirə bilər”.

***Ziya Hikmətoğlu***

# Ənənəvi dəyərlər dəyişməlidir, yoxsa qorunmalıdır?



“Azərbaycan xalqının özünəməxsus adət-ənənələri var və bu da bizim milli-mənəvi dəyərlərimizə əsaslanır”. Bu sözləri SİA-ya açıqlamasında ”YENİ HƏYAT” Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova deyib. Onun sözlərinə görə, hər bir xalqın özünəxas xüsusiyyətləri olduğu kimi, bizim də xüsusi mental dəyərlərimiz var: ”Təbii ki, bəzi adət-ənənələr zamanla cəmiyyətin inkişafına mane ola bilər. Amma bu, o demək deyil ki, həmin ənənələri tamamilə dəyişməli və ya sıradan çıxarmalıyıq. Əksinə, bəzi adət-ənənələri müasir dövrümüzə uyğunlaşdıraraq, daha yeni və qəbulolunan formada cəmiyyətə təqdim edə bilərik. Onların qorunub saxlanılması, eyni zamanda inkişaf etdirilməsi vacibdir. Bəzən ənənəvi, amma artıq cəmiyyətə uyğun gəlməyən formalar dəyişdirilə bilər, lakin kökündə dayanan dəyər qorunmalıdır. Yəni ənənəni tamamilə yox etmək yox, onu müasirləşdirmək daha doğru yanaşmadır. Ən əsası, bu dəyərləri qorumaqda cəmiyyətin rolu böyükdür. Təəssüf ki, bəzən milli-mənəvi dəyərlərimizə qarşı məqsədli şəkildə hücumlar edilir - müasirlik adı altında bu dəyərlər sıxışdırılır, gözdən salınmağa çalışılır. Halbuki biz bu dəyərlərlə doğulmuşuq, bu dəyərlərlə böyümüş və inkişaf etmişik. Onları qorumaq həm cəmiyyətə faydalıdır, həm də xalqın kimliyini və inkişaf səviyyəsini əks etdirir. Milli-mənəvi dəyərlərimizə misal olaraq muğam sənətini, baş örtüyümüz olan kəlağayını göstərmək olar. Bunlar sadəcə mədəniyyət nümunəsi deyil, bizim kimliyimizin daşıyıcılarıdır. Eləcə də bölgələrə xas olan süfrə mədəniyyəti, mətbəx nümunələri - bunlar da qorunmalı və yaşadılmalıdır. Bəzən bu sahələrdə müəyyən dəyişikliklər olur, məsələn, toy adətlərinin qismən müasirləşdirilməsi. Lakin bu dəyişikliklər dəyərləri sıradan çıxarmaq yox, onları zamanın tələblərinə uyğunlaşdırmaq üçün edilməlidir. İnkişaf mütləqdir, amma bu inkişaf dəyərlərimizi itirmək bahasına olmamalıdır. Hər şey qədərində və balanslı şəkildə olmalıdır - həm irəli gedək, həm də kimliyimizi itirməyək”.

***Günel Rəşadqızı***

# “Erməni radikal ruhaniləri son günlərini yaşayır”



## Əcnəbi ekspertlər




Erməni kilsəsi ilə Paşinyan arasında münaqişə, görünür, yeni mərhələyə keçir. ”Hraparak” qəzetinin yazdığına görə, uzun sükutdan sonra din xadimləri əks hücuma keçib: Paşinyanın patriarxlığa basqın etmək barədə bəyanatından sonra son günlər kilsə nümayəndələri Eçmiədzinin fonunda videoçarxlar çəkir, katolikosu dəstəkləyən çıxışlar edir və hakimiyyətin elan etdiyi kampaniyanı tənqid edirlər. II Qareginin özü də aktivləşib- erməni katolikosu müraciətlə çıxış edərək, Paşinyanın həyata keçirdiyi antikilsə kampaniyasının ”müstəqil dövlətçiliyə ciddi təhlükə olduğunu” qeyd edərək, mahiyyətcə ictimaiyyəti baş nazirə qarşı yürüşə çağırıb.



Hadisələr bundan sonra necə inkişaf edəcək? Katolikos qayığı yelləyib Paşinyana inamı sarsıda biləcəkmi? Cənubi Qafqaz üzrə əcnəbi ekspertlər bu vəziyyəti Caliber.Az-a şərh ediblər. Ekspertlərin rəyini oxucularımıza təqdim edirik.

Gürcüstanlı politoloq, hərbi-siyasi elmlər doktoru, professor Vaxtanq Maisaya hesab edir ki, bu qarşıdurma Ermənistandakı dərin siyasi böhranın təzahürüdür. Onun fikrincə, dövlət və kilsə arasında münaqişə ideoloji fərqliliklərdən çox-çox kənara çıxır və islahatlar cəhdləri və xarici siyasət dəyişiklikləri fonunda strateji əhəmiyyət kəsb edir.

”Revanşist müxalifətdən fərqli olaraq, Ermənistanla Azərbaycan arasında sülh ideyasına sadiqlik nümayiş etdirən Paşinyan əslində yeni siyasi xəttin simvoluna çevrilir”,- o qeyd edib.

Ekspert xatırladıb ki, Ermənistanın baş naziri bu yaxınlarda Əbu-Dabidə Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb və bu, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində daha bir addım olub.

”Mən Ermənistanda baş verənlərdə regionda sabitliyi pozmaqda maraqlı olan xarici qüvvələrin də təsirini görürəm. Üçüncü qüvvə iki dövlətin- Ermənistan və Azərbaycanın birgə yaşaması üçün uzunmüddətli formatın yenicə formalaşmağa başladığı bu yeni hadisələr dənizində qəsdən ”suları bulandırır”- V. Moisaya deyib.

Qazaxıstanlı politoloq Atbek Aytmatovun fikrincə, Eçmiədzindəki yepiskoplar, görünür, katolikosun özü də Paşinyanın son bəyanatlarını hərəkətə keçməyə çağırış və onların təhlükəsizliyinə təhdid kimi qəbul ediblər.

”Amma burada qeyd etmək lazımdır ki, erməni din xadimləri özünü bu prosesdə qurban kimi göstərməyə çalışsa da, heç kim onu ölkənin rəsmi hakimiyyətinin əleyhinə danışmağa, dəfələrlə müxalifətlə əməkdaşlıq etməyə və onun təhriki ilə anti-Paşinyan bəyanatlar verməyə məcbur etməyib. Bu, sadəcə olaraq, onun hakimiyyət nümayəndələrinin bəyanatlarına və Ackus Paşinko komandasının bəyanatlarına zidd olan bəyanatlar deyildi. ”Ermənistana və erməni maraqlarına xəyanət” sayılır. Bir din xadiminin özünün buna yol verməsi inanılmazdır və bunun əbədi olaraq davam edəcəyini düşünürdü- Paşinyan uzun müddətdir ki, belə qərara gəlib.

Onun fikrincə, bu gün hər kəsə aydındır ki, revanşist katolikos Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olur.

Təsadüfi deyil ki, ”Real Ermənistan” Paşinyanın yeni layihəsinə çevrilib. Baş nazir anladı ki, 44 günlük müharibədən sonra Ermənistan cəmiyyətinə anaxronizmlərdən və separatçı təcavüzdən xilas olmaq lazımdır. Bütün bu cəfəngiyatlardan yalnız cəmiyyətə yeni dəyərlər, Ermənistanın siyasi yoluna, qonşuları ilə münasibətlərinə fərqli baxışlarla yaxa qurtarmaq olar. Beləliklə, mənim fikrimcə, erməni radikal ruhaniləri özünün ən pis günlərini yaşayır, cəmiyyətin əksəriyyəti Paşinyanın təşəbbüslərini dəstəkləyəcək, Ermənistan xalqı ideoloji düşmənçilik və müharibə şəraitində deyil, sülh şəraitində yaşamaq istəyir”, - deyə A.Aytmatov yekunlaşdırıb.

***Tərcümə - Elçin***



**Elçin Bayramlı**

## Təhsil anlayışı: Bilik vacibdir, yoxsa diplom?

***Son illərdə ali məktəblərə qəbul üçün keçid ballarına baxanda bişmiş toyuğun gülməyi gəlir. 150-200 balla ali məktəbə qəbul olunur. Bu da o deməkdir ki, ali məktəbə daxil olan tələbə 5 ballı sistem üzrə 1 və 2 qiymətlərlə imtahandan keçmiş olur! Hələ bunlar orta təhsilin seçilmişləri, savadlıları, özünə inananlarıdır. Konkret desək, orta təhsil sıradan çıxmışdır!***

İndi keçək bunun səbəblərinə. Orta məktəbdə normal təhsil almaq üçün hər cür şərait var. Bəs müəllimlər niyə məktəblilərə normal təhsil verməkdə maraqlı deyillər? Çünki aşağı əməkhaqqı alan müəllim dərs keçməkdə maraqlı ola bilməz. Onun fikri evində olan çoxsaylı problemləri bu maaşla necə həll edəcəyidir. Ona görə də, dərsi başdansovdu yola verib evinə tələsir ki, bir az istirahət edib, axşam repetitorluqla 5-10 manat əlavə pul qazansın. Ali məktəblərə orta və yuxarı balla qəbul olanların çoxu isə məktəblərin yox repetitorların, hazırlıq kurslarının əsəridir. Məktəb, sadəcə, formal olaraq mövcuddur.

Bununla belə, orta təhsil sisteminin iflasa uğramasının səbəblərini təkcə Təhsil Nazirliyində axtarmaq lazım deyil, həm də valideynlərin özlərində axtarmaq lazımdır. Hər halda, bu ölkədə tam orta təhsil pulsuzdur, dərsliklər pulsuz verilir, məktəblər zəruri ləvazimat və avadanlıqlarla təmin edilir.

O zaman valideyni ağıllı olan, özü isə təhsil almaq istəyən uşaq savadsız ola bilməz. Hər şey dərsliklərdə yazılıb, bilmədiyini isə müəllimdən soruşmaq olar. İstənilən məlumatı internetdən 1 dəqiqəyə tapmaq mümkündür. Yəni, bilik onu istəyənin cibindədir.

Bəs uşaqlar niyə məktəbdə təhsil almaqda maraqlı deyillər? Burada çoxsaylı səbəblər var. Kənd yerlərində uşaqlar təsərrüfat işlərində valideynlərinə kömək etməyə məcburdurlar. Əks halda gəlirləri olmaz. Ona görə də, tədris ilinin çox hissəsini məktəbə gəlmirlər, gələndə də, dərslik halları qalmır.

Şəhərlərdə uşaqlar vaxtlarını internetdə, mobil telefonlarda min oyundan çıxmaqda, televiziyanın qabağında keçirməkdə daha çox maraqlıdırlar. Valideynlərin çoxu uşaqlarına mütləq azadlıq verib.

Uşaq da əyləncəni qoyub dərsi niyə oxusun ki? Ağzında uşaq deyirsən. O nə bilir ki, bu gələcəkdə ona hansı problemlər yaradacaq? Axı hələ ki, hər şey müftə gəlir, atası bahalı telefon, kompüter alır, ”məktəbi bitirən kimi sənə maşın alacam” deyə söz verir, anası seriala baxmaqdan vaxt tapıb ona həyatı başa salmır, yalnız uşağın az yemək yediyindən narahat olur.

Tədris proqramının ağırlığı da uşaqları dərsdən soyudur. Lakin bu əsas səbəb deyil, burada məsuliyyətin çox böyük hissəsi birbaşa valideynlərin üzərinə düşür. Valideynlərin çoxu uşağın həqiqi bilik əldə etməsinə deyil, diplom almasına çalışır. Başa düşmür ki, amansız kapitalizm şəraitində uşağın əlindəki o kağız parçası ona kömək olmayacaq, işəgötürənlərə bacarıqlı, savadlı kadrlar lazımdır. Belədə həmin diplomlular ordusunun çoxu işsiz qalır, ya da ən yaxşı halda hardasa fəhləlik, sürücülük, satıcı işi tapırlar.

Göründüyü kimi, təhsilimizin bərbad gündə olması üçün çoxsaylı səbəblər var. Nə qədər ki, təhlil sisteminin başında fasiləsiz və nəticəsiz eksperimentlər aparılır, nə qədər ki, cəmiyyət olaraq təfəkkürümüz, gələcəyə baxışımız dəyişməyib, bu problem həll olunmayacaq.

1-2 qiymətlə universitetə daxil olub, orada 4 il vaxt itirib, bir ”kağız parçası” ilə çıxmaqdansa, uşaqları yönəldin peşə məktəblərinə, kurslarına, imkan verin bir sənət, peşə öyrənib həyatda öz bacarıqlarını realizə etsinlər. Bununla özlərinə və cəmiyyətə daha faydalı olarlar.

# Böyük Qayıdışın Kəngərli səhifəsi

## Kəngərli kəndinə 43 ailə - 176 nəfər köçürüldü

***Nə az, nə də çox, düz 27 il Ağdamın işğal tarixindən acı-acı yazdıq və o tarixi anaraq böyük sarsıntı keçirdik. Hər dəfə də qayıdacağımıza böyük ümid bəsləyirdik. 44 günlük Vətən müharibəsində əldə etdiymiz QƏLƏBƏ, ZƏFƏR artıq bizə qələbə ilə yoğrulmuz fikirləri yazmağa imkan verdi. Tarixdə çox az xalqlara nəsib olan bir məqamı yaşadıq. Bu qüruru bizə, xalqımıza yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Nə qədər qürurlandırıcı, fərəhvericidir ki, bu gün qalib xalq olaraq işğaldan azad olunan torpaqlarımızda həyata keçirilən abadlıq-quruculuq işlərindən, əzəli torpaqlara köç edən karvanlardan - BÖYÜK QAYIDIŞdan yazırıq. Bu reallıqları qələmə almaq bizlərə nəsib oldu.***



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Daha bir köç karavına şahidlik etdik. Belə ki, bu mərhələdə Kəngərli kəndinə 43 ailə - 176 nəfər köçürüldü. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 50 mindən çox insan yaşayır.

1993-cü ilin iyulun 23-ü Ağdam erməni təcavüzkarları tərəfindən işğal olunmuşdu. Artıq bu gün tarixə qovuşdu. Hər bir azərbaycanlı üçün qəlb ağrıdan bir tarix olsa da, uğurla sona çatan qələbəmiz işğal tariximizi Zəfərlə əvəzlədi. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmışdı. 2020-ci ilin noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır".

### "MƏSƏLƏNİN HƏRBİ YOLLARLA HƏLL EDİLMƏSİ BİZİM QANUNİ HÜQUQUMUZ İDİ"

27 ildən sonra Ağdamın işğalına son qoyuldu. Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Ağdam rayonunun işğaldan azad olunması münasibətilə xalqa müraciətində bildirdi ki, əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz: "Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi". 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu status götürüldü. Ağdam sakinləri də yurd-yuvasına dönürlər. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə biz işğal altında olan torpaqlarımızı düşmənlərdən təmizləyə bildik. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması nəticəsində xalqımız öz torpaqlarına sahib oldu. Bəli, Ağdam öz sakinlərinə qaytarıldı.

### "İŞĞAL EDİLMİŞ RAYONLARIN ARASINDA ƏHALİNİN SAYINA GÖRƏ AĞDAM ƏN BÖYÜK RAYONDUR"

İşğala görə Ağdamın yalnız 10 kəndi Azərbaycanın nəzarəti altında idi. Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yeni, eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Dağlıq Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur.

Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Dağlıq Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi. 1993-cü ilin iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Ağdama edilən son hücumda 6.000 nəfər erməni əsgəri iştirak edirdi. Onların arasında çoxlu sayda xaricdən gəlmiş ermənilər və muzdlu əsgərlər də var idi. Azərbaycan Prezident bildirdiyi kimi, əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Dövlət başçısının məlum müraciətində Prezident Ağdam rayonunun işğaldan azad olunmasını tarixi hadisə olduğunu bildirib: "Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik".



Artıq Ağdamda abadlıq-quruculuq işləri sürətlənibdir. Azərbaycan Prezidenti İlham Əliyev Ağdama səfəri zamanı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən qeyd etmişdi ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq.

### YENİ ŞƏHƏR İNŞA OLUNUR

Cənab Prezident Ağdamdan olan keçmiş məcburi köçkünlərlə dəfələrlə görüşləri əsnasında bildirdiyi fikirləri xatırlatmaq yerinə düşərdi: "Deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq". Prezident onu da bildirib ki, "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur. Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək.

Burada görülən işlər əzəli sakinlərini qoynuna alır. İşğaldan azad olunan ərazilərdə tarixi-mədəni və dini abidələrin bərpası layihələri çərçivəsində Ağdam Cümə məscidindəki işlər yekunlaşıb və məscid əvvəlki görkəminə qaytarılıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra 2022-ci ilin martından Ağdam Cümə məscidinin bərpasına başlanılmışdı. Ağdam Konfrans Mərkəzi Ağdam rayonu işğaldan azad edildikdən sonra inşa olunub. Ağdam Konfrans Mərkəzində müasir tələblərə uyğun tədbirlərin - konfransların, seminarların, forumların, simpoziumların, işgüzar görüşlərin, konsertlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Mərkəz artıq beynəlxalq və yerli tədbirlərə ev sahibliyi edir.

Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Ən əsası isə onu qeyd edək ki, Ağdamda görülən işlər sırasında Ağdam Muğam Mərkəzinin açılışı da böyük əhəmiyyət daşıyır. Cari ilin mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında da iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyev Muğam Mərkəzinin açılış mərasimində çıxışı zamanı "Bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür", - deyə bildirib. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

### XIDIRLIDA YENİ HƏYAT

Bildiyimiz kimi, Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin artıq açılışı olub. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır. Bundan başqa, kənddə zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klubicma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir.

528 şagird yerlik tam orta məktəb istifadəyə verilib. Qeyd edək ki, təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulan məktəbin binası 5 blokdan, o cümlədən idman zalı blokundan ibarətdir. Ərazisi 2,7 hektar olan məktəb binasında 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otaqları, 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana və digər sahələr yaradılıb. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait var. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri inşa edilib.

Görülən işlər və reallaşacaq tədbirlər onu deməyə əsasa verir ki, qısa bir zamanda Ağdam müasir bir şəhərə çevrilir və Ağdam sakinləri firavan və rahat bir həyata qovuşurlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Qrip yalnız qışda olmur: Yay virusları nə qədər təhlükəlidir?

***Yay qripi - adətən yaz və yay aylarında müşahidə olunan, qripə bənzər simptomlarla özünü göstərən infeksiyadır. Klassik ”qrip” (influenza) adətən qış mövsümündə yayılır, lakin yay aylarında baş verən virus infeksiyalarına da bəzən ”yay qripi” deyilir. Bu, tibbə aid rəsmi bir termin olmasa da, ictimaiyyət arasında geniş yayılıb. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Yenidən artan respirator virus dalğaları Hindistan, Kolkata nümunəsi: Yay qripi (xüsusilə Influenza A - H3N2 və H1N2), ekzema viruslar, parainfluenza, rhinovirus, enterovirus və adenovirus yayılıb. Simptomlar - yüksək hərarət, quru öskürək, boğazda ağrı, bədən ağrıları, bəzi hallarda ishal və qusma - xüsusilə uşaqlarda və yaşlılarda müşahidə edilir. H3N2 subtipi yayda daha çox öskürək və soyuqdəymə kimi, H1N2 isə daha yüksək hərarət və yorğunluq törədir .



## Qlobal vəziyyət və yay qripi

Ümumdünya Səhiyyə Təşkilatı: Şimali yarımkürədə qrip fəaliyyəti stabildir, bəzi tropik və inkişaf edən regionlarda yüksəliş müşahidə edilir. A(H1N1)pdm09 və A(H3N2) dominant viruslardır.





Amerika Birləşmiş Ştatları: 2024 2025 qrip mövsümündə təxminən 24 milyon xəstəlik, 310 min xəstəxana müraciəti və 13 min ölüm qeydə alınıb, uşaqlarda isə 57 ölüm .

## Azərbaycanda vəziyyət nədir?

Hazırda Bakı ilə bağlı rəsmi yay qripi göstəriciləri mövcud deyil, lakin ”Cold & Flu Forecast” sistemi yazın orta dövrü üçün risk səviyyəsini ”Çox aşağı” kimi göstərir. Bu deməkdir ki, mövcud hallar əsas qış-yaz qriplərinin davamı ola bilər.





## Yay qripi: simptomlar və müalicə

Ən çox rast gəlinən əlamətlər:
- Hərarət, üşütmə, quru öskürək
- Baş və əzələ ağrısı, boğazda ağrı
- Burun axması və tıxanma
- Orqanizmin bərpası 3-7 gün çəkir, amma simptomlar bəzən 2 həftə davam edə bilər.

## Qorunma və müalicə vasitələri:

- İlk 48 saat içində antivirallar: simptomları yumşaldır və kursu qısaldır.
- Simptomatik müalicə: kifayət qədər maye, istirahət, dekongestantlar, antiseptik qarıqlıqlar.
- Profilaktika: əllərin yuyulması, maska, manqalda öskürmə qaydası, yüksək riskli qruplar üçün Peyvənd məsləhət olunur.

## Azərbaycanda niyə belə hallar müşahidə edilə bilər?

- İsti-çovğun təzyiqi və ani temperatur dəyişkənliyi virusların yayılmasını asanlaşdırır.
- COVID-19 pandemiyası sayəsində təbii infeksiya basıb, indi digər viruslar üstünlük qazanır.

Yay qripi hazırda qlobal və regional miqyasda ”off-season” dalğa kimi artmaqdadır. Azərbaycanda bu tendensiya nəzərəçarpan deyil, amma isti havalarda temperatur dəyişkənliyi, sıxlıq və mədəni tədbirlər nəticəsində rast gəlmə ehtimalı artır. Xüsusilə risk qrupları üçün profilaktik tədbirlərin görülməsi vacibdir.

## Yay qripindən qorunma yolları

Əl gigiyenası - tez-tez sabunla əllərin yuyulması, kondisionerlərin filtrlərinin təmizlənməsi, ictimai nəqliyyatda maska istifadəsi, bol maye qəbulu və balanslı qidalanma, insan sıxlığı olan yerlərdən uzaq durmaq, bağçalar və uşaq düşərgələrində dezinfeksiya tədbirləri bura aiddir.

## Müalicəsi

- Spesifik dərmanı yoxdur, simptomatik müalicə əsasdır:
- Paracetamol və ya ibuprofen (qızdırma və ağrılara qarşı)
- Burun spreyləri, boğaz antiseptikləri
- Antiviral dərmanlara ehtiyac çox nadirdir
- Yalnız ağırlaşma riski olan şəxslərdə (körpələr, yaşlılar, immun sistemi zəif olanlar) həkim məsləhəti ilə əlavə müdaxilə lazım ola bilər.

## Nə zaman həkimə müraciət etmək lazımdır?

* Qızdırma 3 gündən çox davam edirsə
* Uşaqlarda qida qəbulundan imtina və ya ağciyər simptomları varsa
* Halsızlıq, qusma, ishal şiddətli və uzunmüddətlidirsə.

*Ayşən Vəli*

# "Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun"

Azərbaycan publisisti, pedaqoq, maarifçi-demokrat, təbiətşünas alim Nəsən bəy Zərdabi bütün həyatını xalqının maariflənməsinə, onun elmi biliklərə yiyələnməsinə həsr etmişdir. O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində görürdü. "Bizim Cəmiyyəti Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq mümkün deyildir. Elmsiz bu dövrdə yaşamaq mümkün deyildir. Nə etməli? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır !". Beləliklə, o bu məqsədinə çatmaq üçün israrlı olaraq mücadilə edirdi. Təbii ki, Həsən bəy Zərdabinin gördüyü işlərin hamısı millətin tərəqqisi naminə idi. Hər addımında vətənpərvərlik özünün biruzə verirdi. Əlbəttə ki, mətbuatın olması o dövr üçün zəruri idi. O ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada, mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifçisi Abbasqulu bəy Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürürdü.






Məlumat üçün bildirək ki, XIX əsrin ikinci yarısında dünyanın bir sıra ölkələri üçün dövri mətbuat anlayışı çoxdan mövcud olsa da, Azərbaycanda bu sahədə hələ bir yenilik yox idi. Baş verən dövrün ictimai-siyasi hadisələri milli mətbuatımızın yaranmasını zəruri edirdi. Azərbaycanda milli burjuaziyasının və dövrün görkəmli şəxsiyyətlərinin səyi ilə XIX əsrin ikinci yarısında maarif inkişaf etməyə başladı. O dövrün yazılı mənbələrinə istinadən deyə bilərik ki, təhsil sahəsində bəzi dəyişikliklər həyata keçirildi. Məktəblərdə ana dilinin tədrisinin həyata keçirilməsində M.F.Axundovun, Səid Ünsizadənin, S.Ə.Şirvaninin xidmətləri danılmazdır. S.Ünsizadənin Şamaxıda açdığı məktəbdə şəriətlə yanaşı, fəlsəfə, məntiq, psixologiya, islam dininin tarixi, həmçinin rus və ana dili tədris olunurdu. Maarifçiliyin geniş intişar tapmasında bu şəxsiyyətlərlə yanaşı, görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, S.M.Qənizadənin xidmətləri böyükdür. Azərbaycan maarifçilər nəslinin nümayəndələri olan bu şəxsiyyətlər xalqın savadlanması, dövrün mütərəqqi ideyaları ilə tanış olmaları üçün mətbu orqanın imkanlarını yaxşı anlayırdılar. Məhz buna görə də onlar anadili mətbu orqan yaratmaq üçün fəaliyyətə keçdilər.

## "XALQIN HƏR BİR DƏRDİ VƏ XAHİŞİ O QƏZETDƏ ÇAP OLUNSUN Kİ, O QƏZETƏ BAXAN XALQI AYNADA GÖRƏN KİMİ GÖRSÜN"

1875-ci ildə nəşrə başlayan və 1877-ci ildə dayandırılan "Əkinçi" qəzetinin ilk sayının buraxıldığı 22 iyul Azərbaycanda "Milli Mətbuat Günü" kimi qeyd olunur. Əlbəttə ki, çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun"dan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə 1868-ci ildə düşmüşdü. Lakin çar idarələrindəki süründürməçilik, hərcmərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Qəzetin nəşrinə icazə alma 7 il çəkdi. Zərdabinin rəsmi orqanlara ilk müraciəti isə 1873-cü ilin aprel ayında oldu. Qəzetin belə adlandırılması isə çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Qəzetin nəşrinə 1875-ci ildə icazə verildi və iyul ayının 22-də "Əkinçi"nin ilk sayı işıq üzü gördü. Bu tarixdən etibarən Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu. Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular. "Əkinçi"nin ilk nömrəsində Zərdabi "Daxiliyyə", "Əkin və ziraət", "Elmi xəbərlər", "Təzə xəbərlər" bölmələrini olacağının yazırdı. Həsən bəy Zərdabi yazırdı: "Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun" və ya "Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün".

## AZƏRBAYCAN DİLİNDƏ YAZAN BÜTÜN ADAMLAR ÜÇÜN NÜMUNƏ

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın təməlinin qoyulması Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyətin yaranmasına səbəb oldu. 1875-ci il iyulun 22-də milli mətbuatımızın bünövrəsi "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. "Əkinçi" Azərbaycan dilində yayımlanan ilk qəzet olaraq ayda iki dəfə 300-400 tirajla yayımlanmışdır. Ümumilikdə 56 sayı buraxılmışdır. Bu böyük zəhmət hesabına baş gəlmişdir. Dövrünün təqiblərinə baxmayaraq, dözüm gətirdi "Əkinçi" qəzeti. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz iş görür.

Mənbələrə diqqət yetirsək görərik ki, "Əkinçi"nin 6-cı nömrəsindən sonra qəzetdə məktublar şöbəsi də açıldı. Bu 5 şöbə qəzetin sonuncu nömrəsinə qədər davam etmişdir. "Əkinçi" Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrilir. Həsən bəy Zərdabi qəzet oxuyanların sayını artırmaq məqsədi ilə onları pulsuz olaraq yayırdı. M.F.Axundzadə geniş oxucu kütləsi üçün buraxılan mətbuat orqanının şriftlərinin gözəl, dilinin, üslubunun, orfoqrafiyasının tam düzgün olmalıdır, deyə Həsən bəyə yazırdı: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır".

"Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. Bu qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı. XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolunu qeyd etməliyik. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə nəşrə başlayan "Maarif" və "Qırmızı günəş", 1923-cü ildən çıxan "Gənc pioner", 1927-ci ildən çıxan "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanlarını qeyd etməliyik.

1923-cü il ildə Bakıda "Şərq qadını" nəşr olunub. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb.

1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək "Müəllim qəzeti" adlandırıldı. Sonrakı illərdə "Ədəbiyyat", "Azərbaycan pioneri", "Kirpi" jurnalı, "Bakı" və s. qəzetləri meydana gəlmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı.

Bu gün artıq mətbuatımızın 150-ci ildönümünü qeyd edirik. Mətbuat Günü təkcə jurnalistlərin yox, bütövlükdə, cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır. Böyük bir tarixi yol keçən milli mətbuatımızın xalqımızın həyatında rolu danılmazdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Aİ Gürcüstanla əlaqələrinə yenidən baxır



***Hələ bu ilin payızında Şengen zonasına səfər etmək istəyən Gürcüstan vətəndaşları çox güman ki, konsulluqlarda növbəyə durmalı, blankları doldurmalı və bəzən vizadan imtina etməli olacaqlar. Bu, hakim "Gürcü Arzusu" (GD) partiyası 2017-ci ildən etibarən demokratik normalara və 2017-ci ildən qüvvədə olan vizasız rejim şərtlərinə əməl olunması ilə bağlı Aİ-nin səkkiz tələbini yerinə yetirməsə, bu baş verəcək. Hakim partiyanın liderləri əmin edirlər ki, "Avropa bürokratiyasının şantajına" uymayacaqlar.***



Aİ xarici işlər nazirlərinin iyulun 15-də keçirilmiş görüşündən sonra Tbilisiyə göndərilən Aİ-nin məktubunun (və faktiki olaraq ultimatumunun) əsas məqamlarını jurnalistlər üçün xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə Kaja Kallas ümumiləşdirib. O, nazirlərin Gürcüstan hökumətinin rəhbərlərinə və "Gürcü arzusu"nun liderlərinə qarşı sanksiyaların tətbiqi ilə bağlı konsensusa gələ bilmədiklərini inkar etməyib. Səbəb hazırkı Gürcüstan hakimiyyətinə qarşı yönəlmiş qərarlara həmişə veto qoyan Macarıstanın mövqeyidir.

Bununla belə, Kaja Kallas eyham vurub ki, əgər Gürcüstan hakimiyyəti sentyabrın 1-dək Aİ-nin tələblərini yerinə yetirməsə, vizasız rejimin dayandırılması və ya ləğvi məsələsi səsverməyə çıxarılacaq. Bundan sonra Macarıstan kömək edə bilməyəcək, çünki sanksiyalarla bağlı qərarlardan fərqli olaraq, belə bir qərar səs çoxluğu ilə qəbul edilir.

Avropa diplomatiyasının rəhbəri ötən ilin dekabrında Tbilisi və Batumidə keçirilən etiraz aksiyaları zamanı və ondan sonra (minlərlə insan İrakli Kobaxidze hökumətinin Aİ ilə danışıqları dayandırmaq qərarına etiraz edib), yüzlərlə insan nümayiş etdirildiyinə, onlara qarşı nümayiş etdirildiyinə və nümayiş etdirildiyinə işarə edərək, "Vaxtilə Gürcüstan vətəndaşların toplaşmaq və öz fikrini azad ifadə etmək hüququna hörmət etmək öhdəliyini öz üzərinə götürdü" deyib. həbs edilmiş və kütləvi zorakılıq cinayətləri ilə bağlı hökmü gözləyənlər.

Bundan əlavə, xanım Kallas dörd müxalifət koalisiyasını təmsil edən səkkiz müxalifət liderindən yeddisinin avqustun 82-də "Mixeil Saakaşvili rejiminin cinayətlərini" araşdıran parlament komissiyasının iclasına gəlməkdən imtina etdiklərinə görə həbs olunaraq 7 aydan səkkiz aya qədər həbs cəzasına məhkum edilməsindən çaşdığını bildirib. Bu komissiyanın vəzifəsini əvvəllər onun sədri, "Gürcü arzusu"ndan olan deputat, keçmiş ədliyyə naziri Tea Tsulukiani belə təsvir edib. Aİ bu müxalifətçiləri azad etməklə yanaşı, QHT-lərə və LGBT icmasına qarşı "ayrı-seçkilik qanunlarının" ləğvini (Beynəlxalq LGBT ictimai hərəkatı ekstremist kimi tanınır və qadağandır), həmçinin söz azadlığını məhdudlaşdıran qanunvericiliyə düzəlişlər edilməsini tələb edir.

Həmçinin Avropa İttifaqının tələbləri arasında Aİ ilə vizasız rejimə malik olmayan bütün ölkələrin vətəndaşları üçün vizaların tətbiqi, habelə Gürcüstandan Şengen ölkələrinə qeyri-qanuni mühacirətin miqyasının azaldılması da var. 2017-ci ildən Gürcüstan vətəndaşları Şengen zonasına qısamüddətli vizasız səfər hüququ əldə etdikdən sonra onların bir milyon yarımdan çoxu bundan istifadə edib. Eyni zamanda, təxminən 300 min gürcü iş axtarmaq üçün Avropada qalıb və vətənlərinə qayıtmayıb. Çoxları siyasi sığınacaq istəyib. Tiflisdə onlar hesab edirlər ki, Aİ tələblərinin ikinci hissəsi "Gürcü Arzusu"nun hakimiyyəti altında siyasi tələblərdən daha az reallaşdırıla bilər. "Rusiya, Azərbaycan, Türkiyə, Ermənistan və Qazaxıstanla viza rejiminin tətbiqi Gürcüstanın turizm sənayesini öldürəcək", - Nation.ge müstəqil resursunun analitiki David Avalişvili əmindir ki, Gürcüstan hakimiyyəti "ölkəyə hər il 4-5 milyard dollar qazandıran" turizm sənayesini məhv etməkdənsə, "Gürcüstanın müstəqillik əldə etdikdən sonra yeganə real uğurunu - Aİ ilə vizasız gediş-gəlişi itirməsi" ilə razılaşar.

Gürcüstan hakimiyyəti Avropa məktubunu dərc etməyə tələsmir və bunu yalnız Kallas və onun Aİ ölkələrindən olan nazir yoldaşlarının təkrar danışması ilə qiymətləndirmək olar. Amma "Gürcü arzusu"nun liderləri artıq bütün tələblərdən imtina edirlər. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bir gün əvvəl deyib: "Gürcü xalqı şantajlara boyun əyməyəcək. Bizim xalqımızı cəzalandırmaq mümkün olmayacaq".

ABŞ Konqresi də sanksiyalar haqqında qanun layihəsini təsdiqləyib

Müxalifət liderləri Aİ-nin "Gürcüstanın demokratik qüvvələrinə" kömək etmək əzmini alqışlasalar da, yenə də Brüsseldən vizasız rejimi ləğv etməməyi, Gürcüstan rəsmilərinə qarşı sərt sanksiyalar tətbiq etməyi xahiş edirlər. İlk növbədə, "Gürcü Arzusu"nun yaradıcısı Bidzina İvanişviliyə qarşı. Bunu çərşənbə günü Vahid Milli Hərəkat Partiyasının sədri Tinatin Bokuçava deyib. Aİ indiyədək həmrəylik üçün yalnız bir məhdudiyyət tətbiq edə bilib: o, Gürcüstanda verilən diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimi ləğv edib.

Yerli müxalifət hazırda ən böyük ümidlərini Aİ-nin üzvü olmayan bir ölkəyə - Böyük Britaniyaya bağlayır. Böyük Britaniya parlamentində gürcü məsələsi ilə bağlı dinləmələr keçirilib və London Britaniya Xarici İşlər Nazirliyinin və Böyük Britaniyanın Tbilisidəki səfirinin bəyanatlarına əsasən, Bidzina İvanişvilinin şirkətlərinə (onların əksəriyyəti Britaniya ofşor zonalarında qeydiyyatdan keçib) qarşı sanksiyaların tətbiqini istisna etmir.

Gürcüstanlı ekspertlər isə Aİ-nin təkcə hakimiyyət orqanlarını deyil, həm də ölkənin özünü cəzalandıran qərarlara yaxın olmasını tamamilə məntiqli hesab edirlər. "Bəli, indi bir çox gürcülər Tbilisi və Batumi küçələrində demokratiya uğrunda mübarizə aparırlar", politoloq Paata Zakareişvili "Kommersant"a müsahibəsində qeyd edib. "Ancaq bir çox iranlı da demokratiya uğrunda mübarizə aparır. Buna baxmayaraq, İranın Aİ ilə vizasız rejimi yoxdur". 2012-2016-cı illərdə Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Naziri vəzifəsində çalışmış cənab Zakareişvilinin sözlərinə görə, "vizasız rejimin ləğvi cəza deyil, Gürcüstanın Avropa kimi vizasız səyahət olmadığı üçün belə bir mükafata və faydaya layiq olmadığının etirafıdır".

**V.VƏLİYEV**



# İnək məsələsində niyə qadın, Məleykə xanım?

MƏTANƏT

**"Min ölç, bir biç", "Ağzından çıxanı qulağın duysun" və ən əsası, "Danışmaq gümüşdürsə, susmaq qızıldır" el məsələlərini xatırladıq Dövlət İmtahan Mərkəzinin rəhbəri Məleykə Abbaszadə ilə. Bu günlərdə keçirilən mətbuat konfransında onun baytarlıq fakültəsinin əhəmiyyətindən danışaraq heç aidiyyatı olmadığı təqdirdə söhbəti inəyin üzərinə gətirməsi, bu məqamda isə hər gün sağılan inəyin ağır vəziyyəti haqqında qadınların onu yaxşı başa düşdüyünə özünü inandırması, sözün həqiqi mənasında, acı gülüşdən başqa heç nə deyil.**

Bu bənzətməni bir qadın olaraq iki mənada yozdum: birincisi, qadının üzərinə çoxsaylı işlərin yüklənməsi, ikincisi, qadının uşaq əmizdirməsi kimi. Hər iki məqamda bu bənzətmə qəbuledilməzdir. Ona görə ki, müasir cəmiyyətimizdə ziyalı, həm də ölkədə yüksək bir vəzifə tutan, xüsusilə də gənclərlə işləyən bir dövlət məmurunun öz həmcinsləri haqqında bu bənzətməni verməsi qəbahətdir.

Azərbaycan qadını bu gün həyatın bütün sahələrində üstünlüklər qazanan, kişilərlə eyni hüquqa sahib olan, həm çalışdığı sahədə, həm də evində üzərinə düşən vəzifəni layiqincə həyata keçirən vətəndaşdır.

Nəyi qadın yaxşı başa düşər, Məleykə xanım? İnəyin hər gün sağılması məsələsində nə üçün məhz qadın sizi başa düşər, deyirsiniz? Ev işlərinə görə vurğulayırsınızsa, unutmayın ki, evinin xanımı ola bilmək hər qadına nəsib olan xoşbəxtlik deyil. Mətbəxə girib əlinin dadını da qatdığı ləziz yeməkləri masa üzərinə düzmək, ailə üzvlərini başına yığmaq, bir yerdə nahar, şam etmək bir qadın üçün evinin çırağı olmaq deməkdir və bu, o qədər xoşbəxt nüansdır ki, tərif etməyə sözün gücü belə çatmır. Digər işlər də onun kimi. Qadın, bəli, ailəsində üzərinə düşən vəzifələri həyata keçirməyə borcludur. Çünki bura Azərbaycandır və Azərbaycan ailə institunun gedişatı belədir.

Bu gün ölkədə qadınlar üçün hərtərəfli imkanlar yaradılıb ki, çalışan qadınları demirəm, hətta evdar qadınlar belə bu imkanlardan istifadə etməklə, gözəl həyat yaşayırlar: çalışan xanım kimi, uşaq böyüdən, tərbiyə verən xanım kimi, evinin xanımı kimi... Onlar qul deyillər.

İkinci, mənim zənn etdiyim kimi, inəyin hər gün sağılması ifadəsi ilə əmizdirən qadınları nəzərdə tutmağınız məsələsinə gəlincə, bilməniz yaxşı olar ki, övladını iki yaşına qədər ana südü ilə qidalandırmaq bir qadının borcudur və onun üçün qürurdur. Çünki dünyaya insan gətirməyin məsuliyyəti məhz anası olaraq onu öz südü ilə qidalandırmaqdan, cəmiyyətə sağlam vətəndaş verməkdən keçir. Bu mənada hər bir qadın anlamalıdır ki, ana oldusa, övladından bədən formasının pozulacağı üçün südünü əsirgəməməlidir.

Qaldı, inəyin hər gün sağılması məsələsinə, bu onların bioloji xüsusiyyətidir. Allah-təala bu heyvanı belə yaradıb ki, süd istehsal etsin və hər gün sağılsın. Düzdür, bu fikirlə o halda razılaşmıram ki, müasir dünyamızda daha çox süd əldə etmək üçün inəklər istismar olunur, onlar elə qidalandırılır ki, süni şəkildə süd istehsal edir və hər gün litrlərlə süd sağmaqla bu heyvanın bədəninə təcavüz edilir. Lakin normal şəkildə, yəni inəyin gündəlik yemindən yaranan süd onun orqanından xaric olmalıdır. Əks təqdirdə o, bunun əziyyətini çəkə bilər.

Məleykə xanımın özündən başqa heç kim bilməz ki, o, bu fikri nə mənada səsləndirib. Lakin məsələ belədir ki, söz ağızdan çıxınca sən onun ağası, çıxandan sonra o, sənin ağandır. Odur ki, cümləni elə qurmalıyıq ki, ağızdan çıxdıqda düzgün məna versin və müzakirə obyektinə çevrilməsin.

Ümidvarıq ki, Məleykə xanım yenidən Azərbaycan xanımlarının qarşısına çıxar və inəyin gündəlik sağılmasının ağırlığını məhz qadınların başa düşdüyünü nə mənada, nəyə görə, nə üçün söylədiyinin açıqlamasını verər. Əks halda hələ də Azərbaycan cəmiyyəti bu ziyalı xanım məmurun ağzından çıxan cümləni ismin bütün hallarında hallandırmaqdadır və buna ana südü qədər haqqı var.

# O uşaqlıq, bu uşaqlıq...

Bu gündən dünənə... Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar... Uşaqların bir-birinə o sevgisi, bu sevgisi... Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. "Beşdaş"dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun... Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq... Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əllərimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...



Tək "Beşdaş"mı? Xeyr. "Evcik-evcik" oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb "evimizi" qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin "Evcik-evcik" oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib "ailə" üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu "yeməyi". Uzun illər bu "yeməyi" xəyallardan ala bilmir... Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.





Binaların blokları "konsert zallarımız" idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir "meydança" da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: "Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?" Açılardı ikinci mərtəbədən bir qapı: "Ay uşaqlar, bu nə səsdir?" Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz bu "zalı". Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax? bunları düşünərək



susardıq biz... Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bunuçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş... Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş...

"Yeddi daş", "Ortada qaldı", "Gizlənqaç", "Bənövşə, bəndə düşə", "Ocaq yandı, su qaynadı", "Əlimi siçan dişlədi", " Xan-vəzir", "Tıx-tıx", "Dama-dama", "Fincan-fincan", "Top divarda"dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmırlar. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmırlar. İndi heç "Alma desəm aç, armud desəm, açma!", - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, "sel aparıb". "Top divarda"n enib, "Xan-vəzir" ta unudulub, "Tıx-tıx" yada düşmür, "Fincan-fincan" da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini "maus"a verib. "Maus"larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları...

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut... Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər... Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər... Onurğası durğunluqdan "dil açan", özü isə əsla usanmayan, doymayan uşaqlar...

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar... Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda... Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr... Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq... Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur... Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə... Biləbilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin... Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin...

...Bir zamanlar " Beşdaş", "Yeddi daş" oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi... Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda... Harda görsən o daşlardan, xatirələr düşür yada. Şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə...

***Mətanət Məmmədova***

# "Proses fasiləsiz şəkildə davam etdirilməlidir"

"İşğaldan azad olunmuş bölgələrimizə keçmiş məcburi köçkünlərin yerləşdirilməsi fasiləsiz və sistemli şəkildə davam edir. Bu prosesin fasiləsiz və davamlı şəkildə getməsi onun uğurlarından xəbər verir, eyni zamanda prosesin düzgün qurulduğunu göstərir. Artıq məlumatlara görə, bütövlükdə azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgəsinə 50 mindən artıq sakin yerləşdirilib". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, bunların böyük bir hissəsi keçmiş məcburi köçkünlərdir, işləyənlərdir, tələbələrdir və s. Amma bu ərazilərin sürətlə məskunlaşması davam edir. Yaxın bir neçə ildə keçmiş məcburi köçkünlərin böyük bir hissəsi, yəqin ki, bu ərazilərdə öz əvvəlki dədə-baba yurdlarında məskunlaşacaqlar. Bu, Azərbaycanın nə qədər ardıcıl və prinsipial mövqe tutduğunu bir daha göstərir. Eyni zamanda ölkənin xeyli maddi resursları bu işə sərf olunsa da, bir daha dünyada Ermənistanın təcavüzkar və irticaçı simasını ifşa edir: "Göstərir ki, əgər Ermənistan vaxtilə Azərbaycana bu qədər dağıntı və fəlakət bəxş etməsəydi, Azərbaycan indiki qədər vəsaitlərini həmin ərazilərin bərpasına yönəltməzdi və dövlətin, cəmiyyətin daha da rifahına və inkişafına sərf etmiş olardı. Ancaq Azərbaycanın bu işğaldan azad olunmuş ərazilərimizin bərpası və məskunlaşdırılmasına sərf etdiyi resurslar cəmiyyətimiz tərəfindən anlayışla qarşılanır. Çünki hər kəs başa düşür ki, bu Azərbaycan üçün artıq ümummilli məsələdir, şərəf və ləyaqət məsələsidir. Nə qədər ki, torpaqlarımız işğal altında idi, bu torpaqların azadlığı Azərbaycan üçün şərəf məsələsi idi. Bu gün isə işğaldan azad edilmiş ərazilərimizin tam məskunlaşdırılması artıq ölkə üçün bir şərəf və ləyaqət hədəfinə çevrilib.




Ona görə də bu proses fasiləsiz şəkildə davam etdirilməlidir. İnsanların orada - azad edilmiş ərazilərdə lazımi qədər məskunlaşdırılması ölkənin həm də sosial-iqtisadi inkişafının unifikasiya prosesinin tamamlanması deməkdir. Yəni, ölkənin bütün bölgələrində əhalinin yaşayış səviyyəsinin və məskunlaşmasının bərabərləşdirilməsi indi qarşıda dayanan böyük vəzifədir ki, bu da işğaldan azad edilmiş ərazilərdə məskunlaşma prosesi ilə təmin olunmaqdadır".

***Ziya Hikmətoğlu***

# İran yenə hədələnir

## Tehran avqustun sonuna qədər nüvə danışıqlarını bərpa etməlidir

***ABŞ və Aİ3 (Böyük Britaniya, Fransa və Almaniya) İranın nüvə proqramı ilə bağlı ABŞ-la danışıqlar masasına qayıtması üçün son tarix kimi avqustun sonunu təyin ediblər. Əks halda, Avropa ölkələri BMT Təhlükəsizlik Şurasının təxminən on il əvvəl nüvə sazişi, Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) şərtlərinə əsasən İrandan götürdüyü sanksiyaları bərpa edəcəyinə söz verir. İran prezidenti Məsud Pezeşkian ölkəsinin diplomatik prosesə tam açıq olduğunu bildirib. Amma əsas intriqa İsraillə İran arasında müharibədən və ABŞ-ın İranın nüvə obyektlərinə zərbələrindən sonra Yaxın Şərqdə yaranmış yeni siyasi reallıqda ABŞ-İran dialoqunun hansı şəraitdə bərpa oluna biləcəyidir.***

İrana ABŞ-la danışıqlar masasına qayıtmaq və "nüvə" sazişi bağlamaq üçün vaxt verilib. Axios mənbələri bildiriblər ki, bu, avqustun sonudur. Portalın həmsöhbətlərinin sözlərinə görə, bu qərar iyulun 14-də ABŞ, Britaniya, Fransa və Almaniyanın diplomatik departamentlərinin rəhbərləri arasında telefon danışığından sonra qəbul edilib.

Tehran nüvə proqramı ilə bağlı razılaşma ilə razılaşmasa, Aİ3 snapback proseduruna əl atacaq, bu mexanizm BMT Təhlükəsizlik Şurasının bir neçə il ərzində İranın nüvə inkişaflarına cavab olaraq ona qarşı tətbiq etdiyi bütün məhdudiyyətləri bərpa etməyə imkan verəcək. Bu tədbirlər 2015-ci ildə altı beynəlxalq vasitəçi (Rusiya, ABŞ, Çin, İngiltərə, Fransa və Almaniya) və İran arasında imzalanan JCPOA şərtlərinə əsasən ləğv edilib.




Yaxın günlərdə Aİ3 İranla təmasları bərpa etmək və ondan nüvə sənayesinin hazırkı imkanları ətrafında vəziyyətə aydınlıq gətirməyi tələb etmək niyyətindədir. Axios mənbələrinin məlumatına görə, Avropa ölkələri Tehrandan Beynəlxalq Atom Enerjisi Agentliyi tərəfindən tammiqyaslı monitorinqin bərpasını istəyəcəklər və İran rəhbərliyi 12 günlük müharibədən sonra əməkdaşlığı məhdudlaşdırmaq qərarına gəlib. İngiltərə, Almaniya və Fransanın İrandan gözləyəcəyi başqa bir addım, İsrail kəşfiyyatına görə, İsrailin, daha sonra isə Amerikanın (13-25 iyun) bombardmanlarına məruz qalmış İranın nüvə obyektlərinin dağıntıları altında qalan 400 kq yüksək zənginləşdirilmiş uranın könüllü olaraq xaricə ixracıdır.





JCPOA-ya görə, snapback-in işə salınması üçün hüquqi imkan oktyabrın 18-dək mövcuddur və bunun üçün Təhlükəsizlik Şurasında yeni səsvermə tələb olunmayacaq, burada bu addım Rusiya və Çin tərəfindən bloklanacaq. Sanksiyaların aktivləşdirilməsi prosesinin özü 30 günə qədər çəkə bilər.

İsrail tərəfi indi BMT Təhlükəsizlik Şurasının Tehrana qarşı bütün sanksiyalarını bərpa etmək zərurətində təkid edir. İyulun 2-də yəhudi dövlətinin xarici işlər naziri Gideon Saar açıq şəkildə İrana məhdudiyyətlərlə zərbə vurmağın "vaxtının yetişdiyi" barədə danışdı. Məlumata görə, bu məsələ İsrailin baş naziri Binyamin Netanyahunun ABŞ-a iyulun 10-da başa çatan səfəri zamanı da müzakirə olunub.

### Tehran ilkin şərt olmadan Vaşinqtonla danışıqlardan imtina edir

"ABŞ danışıqlardan İranı çaşdırmaq və sionist rejimin hücumunu ört-basdır etmək üçün istifadə etdiyinə görə, artıq əvvəlki kimi dialoq aparmaq mümkün deyil. İlkin şərtlər irəli sürmək lazımdır, o vaxta qədər başqa danışıqlar mümkün olmayacaq", - İran parlamenti üzvlərinin iyul 15-də dərc olunmuş bəyanatında deyilir. İyulun 12-də İranın xarici işlər naziri Abbas Əraqçi qeyd edib ki, bu şərtlərdən biri İsrail və Amerikanın hücumlarının təkrarlanmayacağına zəmanət olmalıdır. Öz növbəsində Məsud Pezeşkian ölkəsinin prinsipcə dialoqun əleyhinə olmadığını açıqlayıb. İran prezidenti iyulun 14-də xaricdə yaşayan həmvətənlərinə müraciətində deyib: "Biz diplomatiya və konstruktiv əlaqəni dəstəkləyirik və müharibəyə qarşıyıq. Biz bütün siyasi və diplomatik resurslardan istifadə edəcəyik". O vurğulayıb ki, İran hökuməti "diplomatiyanın bütün üfüqlərini açmaq üçün hər cür səy göstərəcək".

Pezeşkian deyib ki, Tehran həmişə "bütün dünyada davamlı sülhün qorunmasında effektiv rol oynamağa çalışıb", lakin İsrail ənənəvi olaraq bu yolda maneələr yaradıb. Tehran snapback-i qeyri-qanuni mexanizm hesab edir, çünki JCPOA müddəti başa çatıb. Bunun fonunda İran tərəfi bu mexanizmdən istifadəyə cavab verməyə hazırdır. Mümkün cavablardan bəziləri İranın təhlükəsizlik aparatı ilə əlaqəli olduğu güman edilən Tasnim xəbər agentliyi tərəfindən sadalanıb. Bunlara uranın silah səviyyəsinə qədər zənginləşdirilməsi (90%), sağ qalan nüvə obyektlərində müasir sentrifuqaların quraşdırılması, nüvə tədqiqatlarının və inkişafının genişləndirilməsi və uran metalının istehsal zəncirinin təkmilləşdirilməsi daxildir. Lakin bu cür ssenarilər çox güman ki, İsraillə İranın nüvə infrastrukturuna qarşı ikinci yoxlama əməliyyatına ehtiyac barədə danışmağa əsas verəcək. Netanyahu artıq Vaşinqtona səfəri zamanı belə müzakirələr aparıb.

### Xamenei ABŞ və İsraili "daha güclü" zərbə ilə hədələyib

İranın ali dini lideri Ayətullah Əli Xamenei ölkəsinin İsrail və ABŞ-ın yeni zərbələrinə cavab verməyə hazır olduğunu bildirib. Xamenei İranın yeni zərbəsinin Qətərdəki ABŞ-ın Əl-Udeyd hava bazasına əvvəlki hücumundan qat-qat güclü olacağını vurğulayıb. O, dövlət televiziyasında deyib: "Xalqımız ABŞ-dan və ya sionist rejimdən qorxmur.

İyunun sonunda Əli Xamneyi bildirib ki, ABŞ-ın İranın nüvə obyektlərinə hücumları nəticəsində "əhəmiyyətli heç nə baş verməyib". Eyni zamanda, onun sözlərinə görə, amerikalılar Tehranın Qətərdəki ABŞ hərbi bazasına hücumunun vurduğu ziyanı kiçik hesab edirdilər. İyunun 13-də İsrail İranın ən böyük nüvə və müdafiə obyektlərinə hücum edərək "Şir kimi insanlar" əməliyyatına başlayıb. Qarşılıqlı hücumlar 12 gün davam edib. İyunun 22-də ABŞ İsfahan, Natanz və Fordodakı nüvə obyektlərinə zərbələr endirib. Ertəsi gün İran ABŞ-ın İraq və Qətərdəki hərbi bazalarına hücum edib. Onlardan biri regionun ən böyük bazası Əl-Udeid idi.

**V.VƏLİYEV**

# Sağlam və uzun yaşamaq üçün nə yeməli?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb*

***Hamı uzun və sağlam ömür yaşamaq istəyir, amma hamı bu istəyin tələblərinə cavab verəcək həyat yaşamır. Kimi məcburiyyətdən, kimi etinasızlıqdan, kimi də iştahına düşkün olduğu üçün sağlam qidalana bilmir. Çəkisi artanda və ya azalanda bu problemini sağlam yolla həll etmək yerinə sosial şəbəkələrdə reklam edilən həb və ya məcunlarla həll etməyə çalışır. Nəticədə ya sağlamlığında ciddi problemlər yaranır, ya da aldanır. Halbuki sağlam olmaq, həmişə normal çəkidə qalmaq və uzunömürlü olmaq üçün düzgün qidalanmaq vacibdir.***



Ümumiyyətlə, sağlam bir ömür sürmək, o ömrün də uzun olması üçün bir neçə faktora diqqət eləmək lazımdır. Bütün elmi araşdırmalar və uzunömürlü insanların həyat tərzinə dair aparılan müşahidələr göstərir ki, həm fiziki, həm psixoloji, həm də sosial aspektlər uzunömürlü və sağlam həyat üçün əhəmiyyətlidir. Amma ümumilikdə uzunömürlülüyün şərtləri kimi ilk olaraq sağlam qidalanma vacibdir. Bitki əsaslı qidalar, tərəvəz, meyvə, paxlalılar insan sağlamlığı üçün çox faydalıdır. Bu cür qidalanma uzunömürlülük qazandırmaqla yanaşı həm də xroniki xəstəliklərin qarşısını alır. Bitki əsaslı pəhrizlər xolesterin və qan təzyiqini aşağı salır, arteriyaların tutulmasının qarşısını alır, ürək-damar xəstəlikləri riskini azaldır, infarkt, insult və s. kimi problemləri minimuma endirir.

Bitki tərkibli qidalar qanda şəkərin sabit qalmasına kömək edir, insulinə həssaslığı artırır. Bitkilərin tərkibində sadə şəkərlər az, kompleks karbohidratlar çoxdur. Bitki tərkibli qidalanma həm də arıqlamağa və çəkini qorumağa kömək edir. Çünki bitkilər liflə zəngindir, bu da toxluq hissi yaradır və normadan artıq yeməyin qarşısını alır. Bitki tərkibli qidalar maddələr mübadiləsini stimullaşdırır. Bitkilərin demək olar ki hamısında çoxlu antioksidant və fitokimyəvi maddələr var, bu maddələr hüceyrə zədələnməsinin və xərçəngin qarşısını alır. Bitki ilə qidalanan insanlarda damar sistemi sağlam qaldığı üçün qan dövranı problemsiz işləyir və beyinə yaxşı qan gedir. Bu da Azeymer və demensiya riskini azaldır. Həmçnin bitki tərkibli qidalanma qəbizliyi aradan qaldırır, bağırsaq mikroflorasını balansda saxlayır ki, bu da bağırsaq xərçəngi riskini azaldır.

Tibb elmi deyir ki, az miqdarda ət və şəkərsiz qidalanma uzunömürlülüyün açarıdır. Xüsusilə qırmızı ət və emal olunmuş qidalar qida rasionunda azaldılmalıdır. Qırmızı ət həddindən artıq qəbul edildikdə xolesterin və doymuş yağ miqdarını artırır və beləcə ürək-damar xəstəlikləri riski yüksəlir. Qırmızı ət yerinə balıq istehlak edilməsi daha sağlam qidalanmadır. Qida rasionunda qızardılmış, kabab edilmiş, hisə verilmiş ət üstünlük təşkil edən insanların orqanizmində heterosiklik aminlər və polisiklik aromatik karbohidrogenlər yaranır. Adıçəkilən maddələr kanserogendir. Müasir tədqiqatların bir çoxu yoğun bağırsaq xərçəngi ilə qırmızı ət istehlakı arasında əlaqə olduğunu sübut edir. Emal olunmuş ətlər -kolbasa və sosislər nitrat və nitrit kimi kimyəvi qatqılar ehtiva edir, bu da mədə və bağırsaq xərçəngi riskini artırır. Ümumdünya Səhiyyə Təşkilatı da emal olunmuş əti "1-ci dərəcəli kanserogen" kimi təsnif edir, bu da o deməkdir ki, emal olunmuş ətlər siqaretlə eyni kateqoriyadadır. Qırmızı əti rasionundan azaldan insanlar onun yerini paxlalılar ilə doldura bilər. Ətdə olan zülalı noxud, mərcimək, lobya, qoz-fındıq, yumurta, balıq ilə kompensasiya etmək olar.

Rasiondan şəkərin çıxarılması da sağlam qidalanma şərtlərindən biridir. Şirniyyat, qazlı içkilər, paketli məhsulların tərkibindəki şəkər piylənmə, 2-ci tip diabet, diş çürüməsi və ürək xəstəliklərinə səbəb olur. Qanda şəkərin tez-tez qalxıb-enməsi enerji çatışmazlığına, əsəbə və insulin müqavimətinə səbəb olur. Həmçinin şəkər qaraciyərin piylənməsi və xroniki iltihab riskini artırır. Şəkər ehtiyacını qurudulmuş meyvələr ilə ötüşdürmək olar. Tut, ərik qurusu, xurma çayla qəbul etmək üçün yaxşı alternativdir.

***Lalə Mehralı***

**BAXIŞ BUCAĞI**

# Büdcə qurbanlar tələb edir

*Fransanın baş naziri maliyyə intizamını bərpa etmək planını təklif edir*

Baş nazir Fransua Bayrou Fransada maliyyə intizamını bərpa etmək planını, yeni zəruri hesab etdiyi qeyri-populyar tədbirlərin uzun siyahısını təqdim edib. Bayrou "həqiqət anından" danışır və müxalifət onu işdən çıxarmaqla hədələyir. Fransua Bayrou Fransanın milli borcunu "lənətlə" hədələyir. Onun sözlərinə görə, saniyədə 5000 avro sürətlə artan xərcləri dayandırmaq üçün o, borcun ÜDM-ə nisbətini 2029-cu ilə qədər sabitləşdirmək planı təklif edib. Buna nail olmaq üçün dövlət 43,8 milyard avroya qənaət etməlidir ki, bu da əvvəllər planlaşdırıldığından çoxdur. Vəziyyət Emmanuel Makron tərəfindən mürəkkəbləşib: hökumətin artıq dəhşətli şəkildə gözlədiyi 40 milyard dollarlıq açıqlamaları ərəfəsində prezident müdafiə xərclərini 3,5 milyard avro artırmaq niyyətində olduğunu açıqlayıb.

Bayrounun planının mərkəzi elementi ağ il deyilən ildir - pensiyaların, müavinətlərin və ya vergi miqyasının indeksləşdirilməsi olmadan bir il. İnflyasiya səviyyəsindən asılı olmayaraq, heç kim keçən ildən çox almayacaq - istər təqaüdçü, istər işçi, istərsə də işsiz. Tibbi xərclər bütövlükdə azalacaq: dərmanların qiyməti azalacaq, işdən çıxan tibbi məzuniyyətə nəzarət gücləndiriləcək. Mərkəzçi Bayrou hesab edir ki, ictimai səhiyyə sistemi əsassız olaraq səxavətli və zəif idarə olunur. O, "məhsuldar olmayan dövlət qurumlarını" bağlamaq, dövlət qulluqçularının sayını azaltmaq, pensiyaçılar üçün vergi endirimi sxemini dəyişdirmək istəyir. Əhalinin ən varlı təbəqələrindən və iri bizneslərdən sözdə həmrəylik töhfəsi şəklində böyük töhfə verməsi tələb olunacaq.

## Fransada yeni hökumət və parlament böhranı yaranır



Onlarla bəndin yer aldığı Bayrou planı hətta tərəfdarları tərəfindən də "şok terapiyası" kimi təqdim olunur. Onun əleyhdarları isə Fransa Kommunistlərinin (PCF) rəhbəri Fabien Roussel kimi "mütəşəkkil dəstənin tərkibində silahlı soyğunçuluqdan" danışırlar. Bu arada, bir əcnəbinin fikrincə, bu, məsələyə çox mötədil yanaşmadır: Fransadan cərrahiyyə masasına uzanmağı - bəlkə də bir il pəhriz saxlamağı tələb etmirlər. Ümumi prinsip sadədir: 2026-cı ildə 2025-ci ildən çox xərcləməyin. Təbii ki, çoxları pis bir şeyin başlanğıc olmasından qorxur və nəticə əldə edildikdən sonra pula qənaət etmək üçün müvəqqəti və fövqəladə tədbirlərin ləğv edilməsi nadirdir.

Bayrounun təcili tədbirləri həqiqətən pəhrizdir. Demək olar ki, bütün nazirliklər əlavə maliyyə vəsaitlərini itirəcək (Müdafiə Nazirliyi və Ədliyyə Nazirliyi istisna olmaqla). Funksionerlərin ixtisarı ixtisarsız baş tutacaq; plan yalnız təqaüdə çıxan hər üç dövlət qulluqçusundan birinin dəyişdirilməsindən imtinanı nəzərdə tutur. Pensiya alanlar üçün faiz ayırmaları ləğv edilir, lakin əvəzində illik 2000 avro məbləğində birdəfəlik tutulma tətbiq edilir. Kiçik pensiya alanlar hətta qazanacaqlar; böyük təqaüd alanlar,



əlbəttə ki, itirəcəklər - bəs Fransada böyük pensiya alanlara kim yazığı gəlir?

Bayrou həm də qənaət tədbiri olaraq iki qanuni bayramı - 8 May və Pasxadan sonrakı bazar ertəsini ləğv etməyi təklif edir və sonuncunu "dini əhəmiyyət kəsb etmir" adlandırır. Burada, etiraf etmək lazımdır ki, o, səhv edir: fransızlar üçün əsas dini əhəmiyyət onların imtiyazları və Avropanın ən səxavətli dövlət rifah sistemidir. Sosialistlərin (PS) bu yaxınlarda yenidən seçilən lideri Olivye For buna görə qəzəblənib: "Bu, dirçəliş planı deyil, Fransa modelini məhv etmək planıdır. Bu, ağ il deyil, qara ildir". Hətta təmkinli dəstək göstərməsi gözlənilən sağçı Respublikaçılar (LR) bu təklifə düşmən münasibət bəslədilər. Milli Assambleyadakı LR fraksiyasının rəhbəri Laurent Wauquiez, "ağ ilin" "fiskal qırğın üçün evfemizm" olduğunu söyləyib və vergi artımlarını ehtiva edən büdcəyə səs verməyəcəyinə söz verib. İfrat sağçı Milli Rallinin (RN) rəhbəri Marin Le Pen öz rəqibləri ilə razılaşır. O, hesab edir ki, Bayrou nəzarətsiz immiqrasiya və qaçqınların xərcləri, bərpa olunan enerji, Avropa xəzinəsinə ödənişlər və digər bu kimi, onun fikrincə, cəfəngiyyata qənaət etməli idi. Əvəzində "fransızlar, işçilər və pensiyaçılar yenidən vuruldu".

## Marine Le Pen hədələyib: "Əgər Bayrou planını yenidən yazmasa, biz onu təqaüdə göndərəcəyik"

Büdcə ilə bağlı vəziyyət payıza qədər dayandırılıb və nə manevr etmək üçün maliyyə imkanları, nə də arxalana biləcək parlament çoxluğu olmayan baş nazir üçün bu, son dərəcə təhlükəli olur. Payızda səsvermə başlayanda büdcəsinin ilk qurbanı özü ola bilər.

***V.VƏLİYEV***

SƏS

18 iyul
2025-ci il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 1 yaşına çatmamış körpəni bağçaya aparmaq düzgündürmü?

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*



“Uşağın 1 yaşdan tez bağçaya verilməsi qərarı təkcə praktiki deyil, həm də psixoloji, pedaqoji və tibbi baxımdan çox həssas və məsuliyyətli məsələdir. Bu qərarın düzgünlüyü yalnız valideynin ehtiyacları ilə deyil, həm də uşağın inkişaf səviyyəsi, emosional təhlükəsizlik ehtiyacı və bağçanın şəraiti ilə əlaqələndirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Elmi və psixoloji araşdırmalar göstərir ki, uşağın ilk 0-3 yaş dövrü onun emosional, sosial və idrak inkişafının təməlini qoyur. Bu dövrdə uşağın ən çox ehtiyacı olan şey sabit, təhlükəsiz, isti münasibətli və birbaşa emosional bağ qura biləcəyi şəxs - adətən ana və ya əsas baxıcıdır. Məşhur uşaq psixoloqu Con Bowlby-nin ”bağlanma nəzəriyyəsi”nə görə, uşağın ana ilə ilk 2-3 il ərzində stabil və davamlı bağ qurması onun gələcək emosional sabitliyi və sosial münasibətləri üçün kritik əhəmiyyət daşıyır. 1 yaşdan tez bağçaya verilən uşaqda bu bağ pozula bilər və bu, narahatlıq, qorxu, ünsiyyət çətinliyi kimi problemlərlə nəticələnə bilər.

Digər tərəfdən, bəzi hallarda - məsələn, valideynin işləmək məcburiyyəti və ya ailədə baxıcı imkanının olmaması - uşağın daha tez bağçaya getməsi labüd olur. Belə hallarda əsas diqqət bağçanın şəraitinə və pedaqoji heyətin keyfiyyətinə yönəlməlidir. Uşağın yaşına uyğun qrupda, fərdi yanaşma, isti emosional münasibət və sanitar-gigiyenik şərait təmin olunarsa, bu keçid daha yumşaq və zərərsiz ola bilər. Lakin Azərbaycandakı bir çox bağçada 1 yaşdan aşağı uşaqlar üçün nə fiziki infrastruktur, nə ixtisaslaşmış tərbiyəçilər, nə də fərdi qayğı sistemi mövcuddur. Dövlət bağçalarının əksəriyyəti 2-6 yaş arası uşaqlar üçün nəzərdə tutulub.

Dünya Səhiyyə Təşkilatı və UNICEF kimi beynəlxalq qurumlar da 1 yaşdan tez kollektiv mühitə keçidin uşağın emosional və immun sisteminə mənfi təsir edə biləcəyini vurğulayır. Məsələn, Norveç və Finlandiya kimi ölkələrdə dövlət siyasəti uşağın ən azı 18 ayına qədər valideynin yanında qalmasını təşviq edir və bu məqsədlə uzunmüddətli analıq məzuniyyəti və maddi dəstək proqramları mövcuddur. Azərbaycanda isə valideynlər, xüsusən də analar, işə qayıtmaq məcburiyyətində olduqları üçün alternativ axtarırlar və bu zaman seçim çox zaman uşağın inkişafına uyğun olmur.

Nəticə olaraq, uşağın 1 yaşdan tez bağçaya verilməsi pedaqoji və psixoloji baxımdan tövsiyə edilmir. Bu qərar zərurətdən doğursa belə, uşaq üçün uyğun və qoruyucu mühit yaradılmalı, keçid mərhələsi tədricən və valideynlə sıx əlaqədə həyata keçirilməlidir. Əgər bağça bu imkanları təmin etmirsə, uşağın emosional və fiziki inkişafı üçün mənfi nəticələr qaçılmaz ola bilər. Elm və Təhsil Nazirliyi isə bu istiqamətdə heç bir sistemli maarifləndirmə və ya tənzimləyici mexanizm tətbiq etmir, nə minimum yaş kriteriyası müəyyən olunur, nə də uyğun infrastruktur tələbləri. Bu da valideynlərin qərarını təsadüfi və riskli hala gətirir. Uşağın ali mənafeyi prinsipinə əsasən, bu sahədə ciddi normativ tənzimləmə və ictimai məlumatlandırma zəruridir”.

***Ayşən Vəli***

## Bu da oldu - Tramp istədi, “Coca-Cola” tərkibini dəyişdi..




ABŞ prezidenti Donald Trampla bağlı daha bir ilginc xəbər yayılıb. ABŞ lideri Amerika bazarı üçün içkilərin reseptini dəyişdirmək üçün ”Coca-Cola” ilə razılığa gəldiyini açıqlayıb. Onun sözlərindən məlum olur ki, ABŞ-da satılan məhsullarda bundan sonra təbii qamış şəkərindən istifadə olunacaq. ”ABŞ-da kolada əsl qamış şəkərinin istifadəsi barədə ”Coca-Cola” ilə danışıqlar apardım və onlar razılaşdılar. ”Coca-Cola”da qərar qəbul edən hər kəsə təşəkkürümü bildirirəm”, - deyə Tramp vurğulayıb.

## Tənha yaşayan almanların sayı 17 milyona çatıb...

***Almaniyada tənha yaşayan insanların sayı hər gün artmaqdadır. Bu ölkədə əhalinin hər beş nəfərindən biri - təxminən 17 milyon insan tək yaşayır. Bu, 2004-cü illə müqayisədə 21,8 faiz çoxdur. Həmin vaxt tənha yaşayan insanların sayı 14 milyon nəfər olub. Bu barədə Federal Statistika İdarəsinin 2024-cü ildə əhalinin siyahıya alınmasının nəticələrinə əsasən yaydığı məlumatda qeyd edilib.***



Statistikaya əsasən, tənha yaşayan insanlar arasında yaşlılar üstünlük təşkil edirlər. Belə ki, 65 və daha yuxarı yaş qrupunda olanların 34 faizi, 85 yaşdan yuxarı olanların isə 56 faizi tək yaşayır. Bu göstərici 25-34 yaşlı şəxslər arasında da yüksəkdir - 28 faiz. Tənha yaşayanların təxminən 29 faizi yoxsulluq riski altındadır. Bu, əhali üzrə orta göstəricidən (15,5 faiz) iki dəfə yüksəkdir.

Qeyd edək ki, Almaniyada yoxsulluq həddi vergi və sığorta xərcləri çıxıldıqdan sonra aylıq 1381 avro təşkil edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**